Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Beşinci sessiya
Payız

44-cü cild

17 oktyabr 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**YEDDİNCİ ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
V SESSİYASI İCLASININ**

# PROTOKOLU № 45

*Milli Məclisin iclas salonu.
17 oktyabr 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 112 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşdur:**

**Çingiz Əsgərov**, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

2. “Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya”ya qoşulmaq barədə Azər-

baycan Respublikası qanununun layihəsi.

3. "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

## Aşağıdakı məsələlər müzakirə edilmişdir:

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məlahət İbrahimqızı, Bəxtiyar Əliyev, Fazil Mustafa, Aydın Mirzəzadə, Siyavuş Novruzov, Elman Nəsirov, Sahib Alıyev, Tənzilə Rüstəmxanlı, Ceyhun Məmmədov, Fariz İsmayılzadə

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.11 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**2. "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**3. “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Zahid Oruc, Vasif Qafarov, Tənzilə Rüstəmxanlı, Çingiz Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**4. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**5. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Naqif Həmzəyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**6. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**7. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Elçin Mirzəbəyli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*17 oktyabr 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri.

Hörmətli həmkarlar, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, iclasımız tarixi bir günün ildönümü ərəfəsində keçirilir. 34 il öncə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti dövlət müstəqilliyimizin bərpasını elan etmişdir. Bir əsr ərzində ikinci dəfə xalqımız müstəqil dövlətini qurmaq imkanına nail olmuşdur. Amma müstəqilliyi əldə etmək az idi, onu qoruyub saxlamaq da lazım idi. Təəssüf ki, yeni yaranmış dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata

keçirilməsində kobud səhvlərə yol verilmişdi.

Ermənistanın silahlı təcavüzü, torpaqlarımızın işğalı, yüz minlərcə soydaşımızın yurdlarını tərk etməsi ciddi problemlər yaratmışdı. İqtisadiyyat dağılır, anarxiya və özbaşınalıq genişlənirdi. Biz özümüz bunun hamısının şahidi olmuşuq. Daxili mübarizəyə başı qarışan səriştəsiz iqtidar dövlətçiliyimizi müdafiə etməyə qadir deyildi. Ölkəmiz vətəndaş müharibəsinin astanasında idi. Dövlət müstəqilliyinin itirilməsi təhlükəsi real şəkil almışdı.

Məhz bu ağır vəziyyətdə xalqımız yenidən öz müdrik liderinə üz tutdu. 1993-cü ilin iyun ayında dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması tariximizin dönüş nöqtəsi oldu.

Heydər Əliyev təkcə ölkəni fəlakətdən xilas etmədi, həm də onu yenidən qurdu. Ümummilli Liderimizin həyata keçirdiyi milli qurtuluş missiyası nəticəsində Azərbaycan böyük təhlükələri aradan qaldırdı və davamlı inkişaf yoluna qədəm qoydu. Müasir dövlətçiliyin, iqtisadiyyatın, hüquq sisteminin, ordunun möhkəm təməlləri yaradıldı. Ulu Öndər insanların öz gələcəyinə, dövlətinə və xalqına inamını qaytardı.

Hörmətli deputatlar, məhz Heydər Əliyevin fəaliyyəti sayəsində müstəqillik ideyası real məzmun kəsb etdi və dayanıqlı dövlətçilik sisteminə çevrildi. Milli suverenliyin möhkəm siyasi-hüquqi əsasları formalaşdırıldı. Ulu Öndər sübut etdi ki, güclü dövlət, səmərəli qanunlar və vətəndaş məsuliyyəti olmadan həqiqi müstəqillik mümkün deyil. Bu baxımdan 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması da Heydər Əliyev ideyalarının və əməllərinin təntənəsini ifadə edir.

Hörmətli deputatlar, Ulu Öndərin strateji xəttini layiqincə davam etdirən möhtərəm cənab Prezident İlham

Əliyevin rəhbərliyi müasir dünya dövləti olan Azərbaycanın qurulmasını təmin etmişdir. Ötən 22 il ərzində ölkəmiz sabitlik və inkişaf məkanına çevrilmişdir. İndi Azərbaycan amili regional təhlükəsizliyin və iqtisadi əməkdaşlığın mühüm şərtidir.

Biz 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələr qazanmışıq. Ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi bərqərar etmişik. Bu gün Azərbaycan Respublikası beynəlxalq platformalarda səsi eşidilən, öz sözünü inamla söyləyən bir dövlətdir. Təkcə son yarım ay ərzində baş vermiş beynəlxalq hadisələr də bir daha nümayiş etdirdi ki, Azərbaycanın qlobal siyasi dialoq sistemində sanballı yeri var.

Möhtərəm cənab Prezidentin Avropa Siyasi Birliyinin 7-ci Zirvə toplantısında, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə, MDB Dövlət Başçıları Şurasının Zirvə görüşündə və Yaxın Şərq Sülh Sammitində iştirakı, həmin tədbirlər çərçivəsində keçirdiyi görüşlər və apardığı danışıqlar göstərdi ki, Azərbaycan təkcə regional lider deyil, həm də beynəlxalq proseslərin nüfuzlu iştirakçısıdır.

Bu toplantılarda beynəlxalq və regional təhlükəsizlik, energetika, dayanıqlı inkişaf, sülh və digər məsələlərlə bağlı Azərbaycanın aydın və dəqiq mövqeyi ifadə olundu. Möhtərəm cənab Prezident dövlət başçıları ilə açıq dialoqda hamını düşündürən problemlərin ədalətli və beynəlxalq hüquqa əsaslanan çözüm yollarını təklif etdi. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan regional və qlobal gündəliyin formalaşmasında önəmli rol oynayan bir dövlətdir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, möhtərəm cənab Prezidentin fərmanına əsasən bu gün Füzuli şəhəri günü

qeyd edilir, üç gündən sonra isə Zəngilan şəhəri günü qeyd olunacaq. Bu gün güclü və qüdrətli Azərbaycan işğaldan azad etdiyi əraziləri yenidən həyata qaytarır. Məcburi köçkünlərimiz doğma yurdlarına dönürlər. Əminliklə söyləmək olar ki, möhtərəm cənab İlham Əliyevin liderliyi, xalqımızın birlik və həmrəyliyi dövlətimizin yeni böyük nailiyyətlər qazanmasını, müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcək.

Hörmətli deputatlar, təklif edirəm ki, Müstəqilliyin Bərpası Günü münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq. *(Alqışlar.)*

Çox sağ olun. Mən sizin hər birinizi bayram münasibəti ilə ürəkdən təbrik edirəm. Bizi müşayiət edən media nümayəndələrini də təbrik edirəm.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti oktyabrın 13-də və 14-də Pakistan İslam Respublikasında işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd Azərbaycan–Pakistan–Türkiyə Parlament sədrlərinin Üçüncü Üçtərəfli Görüşündə iştirak etmək idi. Mən xatırladım ki, birinci belə görüş Bakıda, ikinci isə Türkiyədə keçirilmişdi. Bu dəfə növbə Pakistanın idi. Biz ayın 13-də nümayəndə heyəti ilə Pakistana yola düşdük.

Keçirilən görüşdə üç ölkənin parlament sədrləri nitq söylədilər. Qeyd edim ki, həm mənim çıxışımda, həm də Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin, Pakistan Senatının sədri Syed Yusuf Raza Gilaninin və Türkiyə Böyük Millət Məclisinin sədri Numan

Kurtulmuşun çıxışlarında ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyəyə çatmasından məmnunluq ifadə olundu. Mən çıxışımda vurğuladım ki, Azərbaycan, Pakistan və Türkiyə hər zaman bir-birinin yanında olmuş və bir-birini dəstəkləmişlər. Xalqımız 44 günlük Vətən müharibəsinin ilk günlərindən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyi heç zaman unutmayacaq. Qeyd etdim ki, Azərbaycan da bütün məsələlərdə hər zaman Türkiyəyə və Pakistana dəstək nümayiş etdirmişdir.

Həmin gün nümayəndə heyətinin üzvləri – bizim 5 deputatımız üçtərəfli görüş çərçivəsində keçirilmiş sessiyada ərazi bütövlüyünün və suverenliyin müdafiəsi, xarici təhdidlərə qarşı həmrəylik, iqlim dəyişikliklərinə və fəlakətlərə qarşı dayanıqlılıq, davamlı inkişaf üçün əməkdaşlıq strategiyaları mövzularında çıxış etmişlər və müzakirələrdə də fəal iştirak etmişlər.

Hörmətli deputatlar, görüşün yekunlarına dair İslamabad Bəyannaməsi qəbul edildi. Qeyd edim ki, bu sənəd parlamentlərimizin iş birliyi üçün yeni üfüqlər açır, onların regionda sülh, sabitlik və tərəqqi kimi ümumi məqsədlərə sadiqliyini təsbit edir.

Hörmətli deputatlar, səfər çərçivəsində digər mühüm görüşlər də keçirildi. Oktyabrın 14-də Pakistan İslam Respublikasının Prezidenti cənab Asif Zardari Azərbaycan və Türkiyə parlamentlərinin və dostluq qruplarının sədrlərini qəbul etdi. Görüşdə ölkələrimiz və xalqlarımız arasında əlaqələr, o cümlədən parlamentlərarası əməkdaşlığın da gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar, oktyabrın 14-də, yəni növbəti gün parlament sədrləri və nümayəndə heyətləri Lahor şəhərində Pakistanın Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz

Şərif ilə görüşdülər. Görüşdə ölkələrimiz arasında əlaqələr və parlament əməkdaşlığının genişləndirilməsi məsələləri də müzakirə olundu.

Səfər çərçivəsində bir sıra digər tədbirlər də keçirildi.

Mən hesab edirəm, Pakistan İslam Respublikasına işgüzar səfər uğurlu oldu və nümayəndə heyətinin hər bir üzvünə öz minnətdarlığımı bildirirəm.

İndi isə, hörmətli deputatlar, xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.11 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, həmişə olduğu kimi, bizim 30 dəqiqəmiz var. Buyurun, kim çıxış etmək istəyirsə, yazıla bilər. Yazılanların sayı 10 nəfərdən çoxdur. Məndə görünmür, neçə nəfərdir. Sizdə, Əli müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 23 nəfər yazılıb, ancaq 10 nəfər çıxış edə biləcək, hörmətli həmkarlar. Fərid müəllim, deyin, 10 nəfərin siyahısı qalsın.

İbrahimqızı Məlahət. Buyurun.

**Məlahət İbrahimqızı**. Çox sağ olun, hörmətli Sahibə xanım. Mən Sizə bütün səfərlərinizdə uğurlar arzulayıram. Hesab edirəm ki, hər uğurlu səfər parlament diplomatiyasının Azərbaycan dövlətçiliyinə verdiyi töhfədir.

Hörmətli xanım sədr, hörmətli həmkarlarım, bu günlərdə ictimaiyyət arasında və mediada ən çox müzakirə edilən mövzu bir neçə gün bundan öncə Bakı şəhər Səbail rayon məhkəməsinin qəbul etdiyi qərardır. Mətbuatda da dərc edildiyi kimi, məhkəmənin qərarına görə, Cinayət Məcəlləsinin 274-cü maddəsi – dövlətə xəyanət, 278-ci maddəsi – hakimiyyəti zorla ələ keçirmə, 193.1-ci maddəsi – cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılması kimi ağır cinayətlər üzrə Ramiz Mehdiyev barəsində 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçilibdir.

Azərbaycan xalqı çox gözəl bilir ki, Ramiz Mehdiyev kimi yüzlərcə hakimiyyət hərisləri olsa da, 200 illik dünya erməniliyinin, erməni lobbisinin və işğalçı Ermənistanın arxasında dayanan super güclər 44 gün ərzində onları məğlub edən müzəffər Ali Baş Komandanımızın "dəmir yumruğu" qarşısında çox acizdirlər. Ölkəmizin ən çətin günlərində, 1994–1998-ci illərdə dövlət çevrilişlərinə cəhdlər olan dövrdə belə Azərbaycan xalqı Ulu Öndərimiz Heydər Əliyevin ətrafında sarsılmaz birlik nümayiş etdirdi. Hesab edirəm ki, bu gün dövlət çevrilişinə cəhd edən və hakimiyyəti zorla ələ keçirmək istəyən bu cinayətkar qüvvələrin çirkli əməlləri dövlətimizin qurucusu, bütün həyatı boyu xalqının rifahına və dövlət müstəqilliyimizin sarsılmazlığına xidmət edən Heydər Əliyevə, Azərbaycan xalqını dünyada qalib xalq kimi tanıdan və beynəlxalq aləmdə dövlətimizə böyük imic qazandıran İlham Əliyevə və azadlığımız, müstəqilliyimiz, ərazi bütövlüyümüz, suverenliyimiz uğrunda canından keçmiş əziz şəhidlərimizin ruhuna ən ağır xəyanətdir. Sözsüz ki, Azərbaycan xalqı və gələcək nəsillər bu xəyanəti heç vaxt bağışlamayacaqdır. Əlbəttə ki, kimliyindən və tutduğu mövqedən asılı olmayaraq, dövlətçiliyimizə, dövlət başçısına,

möhtərəm Prezidentimizə xəyanət edən hər kəs, eləcə də Ramiz Mehdiyev və onun silahdaşları qanun qarşısında mütləq cavab verəcəklər. Azərbaycan xalqı və ictimaiyyəti öz dövlətinə, Prezidentinə, liderinə inanır, güvənir və hər zaman onun ətrafında sarsılmaz birlik nümayiş etdirir.

Mən çıxışımın sonunda həmkarlarımı 18 oktyabr, müstəqilliyimizə yenidən qovuşmağımızla bağlı təbrik edirəm və Ulu Öndərimizin Azərbaycan dövlətçiliyinin güclənməsində, sarsılmazlığı uğrunda böyük xidmətini nəzərə alaraq onun dahi bir kəlamını xatırlatmaq istəyirəm. 1995-ci ildə burada olan, o dövrün ən fəalları və bu gün də Azərbaycan xalqının klassiklərindən olan həmkarlarım, yəqin, xatırlayırlar. Həmişə belə çətin günlərdə Ulu Öndərimizin bir sözü var idi: "Mövqe göstərmək vaxtıdır". Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Əliyev Bəxtiyar. Buyurun.

**Bəxtiyar Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, 5 il bundan öncə bu günlərdə Vətən müharibəsinin 21-ci günü idi. Bizim hər birimiz televizor qarşısında müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevdən növbəti müjdəli xəbərləri səbirsizliklə gözləyirdik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin komandanlığı altında rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı Ermənistanın işğalından azad edərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdi, Zəfər tarixini yazdı. Şübhəsiz ki, oktyabrın 18-də qəbul edilmiş müstəqillik haqqında akt hələ tam suverenlik, müstəqillik demək deyildi. Xüsusi ilə də, hörmətli xanım sədr, Sizin qeyd etdiyiniz kimi, həmin dövrdə mövcud hərc-mərclik, səriştəsizlik və xalqın milli maraqları ilə hakimiyyətə gəlməyən, bu maraqları qorumayan qüvvələrin – AXCP–Müsavat cütlüyünün, ondan əvvəlki

rəhbərlərinin səriştəsizliyi və xalqla bir olmaması nəticəsində müstəqilliyimiz çox böyük sual altında idi, o cümlədən dövlətçiliyimiz də. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi müstəqilliyimizi əbədi və dönməz etdi. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və müstəqilliyimiz daha da möhkəmlənib. Bu gün Azərbaycan dünyanın yeni düzənində söz sahibidir.

Sizin də qeyd etdiyiniz kimi, təkcə sentyabrın sonundan oktyabrın 17-ə qədərki dövrdə cənab Prezidentin iştirak etdiyi beynəlxalq tədbirlərdə çıxışları, Azərbaycan dövlətinin mövqeyi ilə bağlı fikirləri, onun dünya proseslərində mövqeyinin qəbul edilməsi və Azərbaycanın, sözün əsl mənasında, qəbul edilməsi bir daha göstərir ki, bu gün Azərbaycan Cənubi Qafqazda, bölgədə müstəqil, suveren, güclü bir dövlət kimi dünya düzəninə, sülhə, barışa istiqamət verən, onu müəyyən edən bir güc mərkəzinə çevrilmişdir.

Azərbaycan dövlətçiliyi sarsılmazdır. Xalqımız Prezidenti ətrafında sıx birləşibdir və heç kəs də Azərbaycan xalqını, dövlətini onun müstəqilliyindən qətiyyən yayındıra bilməz. Heç bir qüvvə də buna mane ola bilməz. Kimlərsə də bu fikrə düşübsə, onlar nəticə çıxartmalıdır ki, dövlət onların hər birinə layiqli cavabı verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Hörmətli xanım sədr, Sizin ilk çıxışınızda da haqlı olaraq qeyd etdiyiniz kimi, Azərbaycanın müstəqilliyinin qazanılması Azərbaycan xalqının ən böyük dəyərlərindən biri idi. Bu müstəqilliyə

biz geri dönüş edəndə bunun sadəcə bəyanatlardan, parlament qərarlarından ibarət olmadığını gördük. Bu gün İlham Əliyevin Baş Komandanlığı ilə Azərbaycan torpaqlarının işğaldan azad olunması bizim müstəqillik davamıza ayrı bir dəyər verdi. Yenidən dönüşdə artıq bunun nə dərəcədə önəmli olduğunu gördük. Biz son 200 ildə bu qədər torpaqlarımızın sahibinə çevrilə bilməmişdik və nəhayət, bu baş verdi. Ona görə də müstəqilliymizin dəyəri Azərbaycan insanının gözündə daha da artmağa başladı.

Bu günlərdə Türkiyə Cümhuriyyətində belə bir qərar qəbul olundu. Türk respublikalarında yaşayan vətəndaşlar artıq Türkiyədə əcnəbi statusunu daşımayacaqlar, onlar işlə təminatda, peşə fəaliyyətini həyata keçirməkdə türk vətəndaşları ilə birlikdə bunu gerçəkləşdirə biləcəklər. Mən hesab edirəm ki, biz də bu mövzu ətrafında düşünməliyik. Bu, Türkiyənin demoqrafik problemlərinin həlli baxımından vacibdir. Azərbaycanın da demoqrafik məsələlərinin həllində bu istiqamətdə hansı isə qərarların qəbul olunması faydalı ola bilər. Xüsusi ilə də Gürcüstanda yaşayan azərbaycanlı soydaşlarımızın bizdə qanun səviyyəsində soydaş olaraq tanınmaması məsələsinin yaratdığı problemlərə toxunmaq istəyirəm. Eyni zamanda, Rusiyada yaşayan Azərbaycan vətəndaşları. Biz həm demoqrafik problemimizi həll etmək baxımından, həm də onların Azərbaycana daha çox bağlanması baxımından belə imkanların tanınması məsələsini müzakirə etməliyik. Təbii ki, bu müzakirədə Azərbaycan dövlətinin maraqlarını da nəzərə alaq. Amma o soydaşlarımızın da burada özlərini əcnəbi kimi hiss etməməsini təmin etməliyik. Bu, olduqca vacib addımlardan biridir. Rəsmiləşmə və legitimləşmə məsələsinə baxmalıyıq.

Digər vacib məsələ. Bu son 5 ildə statistikada qeyd

olunur ki, Azərbaycanda 83 min nikahdankənar uşaq doğulubdur. Təsəvvür edin ki, 9 min uşaq, 15-19 yaşlı qızlar uşaq dünyaya gətiriblər. Bu, ailə institutu üçün olduqca böyük, faciəli bir problemdir. Biz əhalinin sayı çox olan dövlət olsaq, buna əhəmiyyət verməmək olar. Biz bu istiqamətdə də cəmiyyətdə ictimai müzakirə sistemini qaldırmalıyıq, canlandırmalıyıq. Necə edək ki, biz ailə institutunu bu cür qoruya bilək. Bu, olduqca vacib məsələdir. Bu, orta məktəbdən başqa sahələrə də sirayət edir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Mən də 18 oktyabr Müstəqilliyin Bərpası Günü münasibəti ilə hər kəsi ürəkdən təbrik edirəm. Bu, tarixi bir hadisədir. Azərbaycan xalqının tarixində yeni parlaq bir səhifə idi. Bu, əslində, 1918-ci il 28 may tarixli hadisənin yeni dövrdə bir təkrarı idi. Düzdür, əgər Ulu Öndər Heydər Əliyev həmin dövrdə hakimiyyətdə, böyük siyasətdə olsaydı, biz müstəqilliyimizi oktyabrın 18-də deyil, xeyli əvvəl elan edə bilərdik, eyni zamanda, 1991-ci ildən 1993-cü ilə qədər olan dövrü itirməzdik. Ancaq bununla belə Azərbaycan xalqı onu böyük siyasətə çağırdı və Ulu Öndərin Azərbaycan dövlətçiliyinin, müstəqil dövlətçiliyin bünövrəsini əsaslı şəkildə qoyması, Azərbaycanın gedəcəyi strateji yolu müəyyənləşdirməsi Azərbaycanın inkişafının əsası oldu.

Cənab Prezidentimizin bu siyasəti uğurla davam etdirməsi bu gün dünya birliyində güclü, nüfuzlu bir Azərbaycan yaratmağa imkan verdi. Son 2 həftədə cənab Prezidentimiz 4 böyük sammitdə iştirak etdi. Axırıncı – Misirdə keçirilən sammitdə ABŞ Prezidentinin cənab

Prezident haqqında xoş sözlər deməsi onu göstərdi ki, Azərbaycanın uğurları, cənab Prezidentin güclü siyasəti dünya tərəfindən görünür və qəbul edilir.

Eyni zamanda, bu günlərdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Vatikanda səfərdədir. Orada İtaliya–Azərbaycan dostluğunun möhkəmlənməsində yeni bir səhifə açılır. Bütün bunlar göstərir ki, oktyabrın 18-də müstəqilliyimizin bərpa edilməsi Azərbaycan xalqının layiqli tarixi idi və Azərbaycan xalqı bunu layiqincə reallaşdıra bildi. Hesab edirəm ki, bundan sonra da dövlətimiz möhkəm olacaq. Dövlətimizi sarsıtmaq, kənardan onun işlərinə müdaxilə etmək imkanları heç vaxt verilməyəcək. Azərbaycan müstəqil dövlətçiliyini, sözün əsl mənasında, həmişə bərpa edəcək.

13-15 oktyabr tarixlərində Azərbaycanda Türkmənistanın mədəniyyət günləri keçirildi. Bu, Azərbaycan–Türkmənistan əlaqələrində, türk dünyasında böyük bir hadisə idi. Bu göstərdi ki, türk xalqları, türk dövlətləri bir-birinə bütün – siyasi, iqtisadi, mədəni sahələrdə yaxındırlar. Ötən il Bakı Dövlət Universitetində qazax dili və özbək dili ilə bağlı magistratura proqramı açıldı. Bunların hamısı türk dövlətlərinin birliyinin vacibliyini göstərir. Dünya türk dövlətlərinin birliyinin necə qorunduğunun və Azərbaycanın buna necə töhfə verdiyinin bir daha fərqindədir.

Müstəqillik günümüz mübarək. Türk dünyası möhkəmdir və bundan sonra həmişə qüdrətli olacaq.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Hörmətli xanım sədr, hörmətli deputatlar, mən də qarşıdan gələn bayram münasibəti ilə hər birinizi təbrik edirəm. Bu bayram xalqımızın, millətimi-

zin, dövlətimizin bayramıdır. Müstəqilliyi bərpa etmişik. Dünyada çox xalqlar var, çox millətlər var. Amma əfsuslar olsun ki, müstəqil dövləti olan xalqların sayı 200-dən o tərəfə keçmir. Onlardan biri də bizik.

Mən bu gün burada bir-birini davam etdirən iki yol haqqında danışmaq istəyirəm. Bir Ümummilli Liderin yolundan, bir də cənab Prezidentin indi davam etdirdiyi yoldan danışmaq istəyirdim. Ümummilli Lider müəyyən xarici səfərlərə gedəndə hamı onunla görüşmək istəyirdi. Mən neçə dəfələrlə müşahidə etmişəm, yanında olmuşam. İstər xalqla görüşdə, istərsə də xarici səfərlərdə hər bir ölkənin prezidenti Ümummilli Liderlə görüşmək istəyirdi. Heydər Əliyev bunu öz şəxsiyyəti ilə qazanmışdı. Onun müstəqil dövləti o vaxt yox idi. Onun şəxsi hörməti, dünyaya verdiyi töhfələr sayəsində hamı Heydər Əliyevlə gəlib görüşmək istəyirdi.

Bu gün Misirdə keçirilən tədbirdə cənab Prezidenti görəndə Heydər Əliyevi xatırlayırıq. Eyni yolun davamıdır. Bütün böyük ölkələrin prezidentləri bu gün bizim Prezidentlə görüşmək istəyir və onun haqqında xoş sözlər deyirlər.

Tramp belə bir söz dedi ki, İlham Əliyevlə düşmənçilik etməyin, yəni onunla düşmən olmaq olmaz, ancaq dost olmaq olar. O, başqa dövlətin nümayəndələrinə nə qədər dəyərli bir söz dedi, ifadə işlətdi.

Yaxud da ki, Fransanın prezidenti. Gəldi, üzrxahlıq etdi. Biz bu Milli Məclisdə dəfələrlə Fransa haqqında demişdik. Üzrxahlıq etdi, cənab Prezidentdən üzr istədi.

Cənab Prezidentin atdığı addımlar, dünyaya verdiyi tövsiyələr, mesajlar hamısı özünü göstərdi. Bu gün biz onunla fəxarət hissi keçiririk. Biz bu gün xoşbəxtik ki, belə bir Prezidentimiz var, belə bir rəhbərimiz var. Bütün

dünya onunla hesablaşır. Balaca dövləti olmasına baxmayaraq, şəxsiyyəti ilə böyükdür. Allah onu qorusun. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim.

Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Hörmətli xanım sədr, Sizi Pakistan Respublikasına növbəti uğurlu səfəriniz münasibəti ilə təbrik edirəm. Eyni zamanda, fürsətdən istifadə edib xalqımızı da 18 oktyabr Müstəqilliyin Bərpası Günü münasibəti ilə təbrik edirəm.

Xanım sədr, Sizin çıxışınızda cənab Prezidentin təxminən son 15 gün ərzində müxtəlif coğrafiyalardakı təmsilçiliyi və Azərbaycanın milli maraqlarının yüksək səviyyədə qorunması ilə bağlı fikirlər səsləndi. Həmin fikirləri müdafiə edərək söyləmək istəyirəm ki, artıq dövlətimizin başçısının dünyada nüfuzu o səviyyəyə gəlib çatıb, o, sadəcə, bir dövlətin rəhbəri kimi qəbul edilmir, məhz dünya miqyaslı lider kimi qiymətləndirilir. BMT Baş Məclisində 193 dövlət var və 193 lider var. Amma Azərbaycan Prezidenti bəlkə də yeganə dövlət başçısı oldu ki, o, ölkəsinin üzləşdiyi problemlərdən deyil, məhz qalib Prezident kimi Zəfərə gedən yoldan danışdı, yeni tarixi reallıqlardan bəhs etdi və Azərbaycanın nail olmaq istədiyi yeni hədəfləri bütün dünyaya bəyan etdi.

Avropanın təxminən 50-yə qədər dövləti var. Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev Kopenhagendə Avropa Siyasi Birliyinin 7-ci Sammitində artıq Avropanın aparıcı liderlərindən biri idi ki, öz mövqeyini ortaya qoydu. Yenə də Azərbaycanın milli maraqlarını ən yüksək səviyyədə ifadə etdi. Ermənistan Baş naziri ilə sülh prosesi ilə bağlı növbəti danışıqlar... Artıq içimizdə

bir inam var ki, bütün bu danışıqların məntiqi sonluğu kimi, 2026-cı il tarixə çoxdan gözlənilən bir sülh ili kimi daxil ola bilər. Biz buna inanırıq.

Qəbələdə isə Türk Dövlətləri Təşkilatının Sammitini keçirdik, ona ev sahibliyi elədik. Cənab Prezident bununla da göstərdi ki, bugünkü dünyamızda dövlətlər arasında bir etimadsızlıq mühiti hökm sürməkdədir. Bu reallıqda "Dövlətlərarası münasibətlər necə olmalıdır?" sualına cavab axtarılsa, türk dövlətləri arasındakı münasibət bir nümunədir, bir örnəkdir. Artıq bu təşkilat dünyanın əsas geosiyasi mərkəzlərindən birinə çevrilməkdədir.

Nəhayət, Şarm Əl-Şeyxdə baş verən hadisələr bütün dünyada Azərbaycan Prezidentinə olan yüksək etimadın ifadəsi idi. Dünyanın ən ağır münaqişələrindən birinin həlli baş verirdi, o istiqamətdə tarixi addımlar atılırdı. Azərbaycan Prezidenti bu tədbirə dəvət edilmişdi. Nəyə görə? Ona görə ki, sülh prosesinə töhfə verə biləcək liderdir. Bunu sözü ilə deyil, əməli ilə təsdiqləmiş dövlət başçısıdır. Hesab edirəm ki, dünyanın fövqəldövləti olan Amerika Birləşmiş Ştatlarının Prezidenti Trampın cənab Prezident İlham Əliyev haqqında dediyi sözlər dediklərimizi bir daha...

**Sədrlik edən.** Sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar, mən cənab İlham Əliyevin də qatıldığı Şarm Əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitinin növbəti dəfə aktuallaşdırdığı bir reallıqla bağlı danışmaq istəyirəm. Sözügedən sammitdə ABŞ Prezidenti Donald Tramp aralarındakı uzun sürən münaqişəyə son qoyduqlarına görə Azərbaycan və Ermənistana təşəkkür etməklə oxşar problemi olanlara bizi örnək göstərdi. Burada öz rolunu da

qabartdı ki, bu, anlaşılandır. Orada Azərbaycan–Ermənistan və İsrail–Fələstin qarşıdurmasının fərqli tərəflərinə toxunulmadı. Bu da təbiidir, çünki sammit o məqsədlə keçirilmirdi.

Fərqlər çoxdur və mən onların ən mühümlərinə toxunmaq istəyirəm.

1. Qarabağdakı terrorçu rejimin etdiyi pislik, törətdiyi vəhşiliklər Həmasınkını kölgədə qoydu, işğalçı Ermənistan cəbhə xəttindən onlarca, hətta yüzlərcə kilometr uzaqda yerləşən dinc yaşayış məskənlərimizə raket zərbəsi endirdiyi halda, Azərbaycan buna qarşılıq vermədi, ancaq düşmənin ordusunu hədəf aldı. 44 günlük savaş zamanı da, lokal antiterror əməliyyatı keçirilərkən də maksimum səy göstərildi ki, evlərə, mülki obyektlərə və şəxslərə xətər dəyməsin.

2. Azərbaycanın savaşı təkcə antiterror deyil, həm də antiişğal xarakterli idi, yəni öz torpaqlarında və beynəlxalq normalardan bir addım belə qırağa çıxılmadan aparılırdı.

3. Proseslərin sonrakı gedişatı göstərdi ki, ordumuz təkcə torpaq bütövlüyünün və suverenliyinin təmini üçün deyil, beynəlxalq hüquqa hörmət və əməl edənlərin hələ də qaldığını göstərmək, regiona sülh gətirmək üçün savaşıb.

4. Bütün bunlar ortada ikən Ermənistandakı revanşistlər Paşinyana irad tuturlar ki, niyə ABŞ Prezidenti bizim regionda sülhdən danışarkən ancaq cənab İlham Əliyevə xitab etdi, ona isə dekor kimi yanaşılır? İndi bildiniz niyə? Regiona sülhü kimin gətirdiyi, özü də güc tətbiqi ilə gətirdiyi ortada ikən Paşinyanın yerinə siz olsa idiniz, guya fərqli statusda çıxış edəcəkdiniz?

Sonda onu da deyim ki, mən cənab İlham Əliyevin

Şarm Əl-Şeyxdəki sammitə dəvət edilməsini onun Yaxın Şərqin gələcəyində mühüm rol oynayacaq lider, Azərbaycanı isə bu böyük coğrafiyanın bir parçası, həm də önəmli parçası gözündə görüldüyünün növbəti təsdiqi kimi qiymətləndirirəm. Bu, həm də onun təsdiqidir ki, Azərbaycan təkcə müstəqilliyinin bərpasını deyil, həm də dönməzliyini tam təmin etdikdən sonra indi də keçmişdəki qüdrətinin bərpası mərhələsinə qədəm qoyur.

Mən də hər kəsi Füzulinin işğaldan azad olunması və Müstəqilliyin Bərpası Günü münasibəti ilə təbrik edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Tənzilə Rüstəmxanlı. Buyurun.

**Tənzilə Rüstəmxanlı.** Hörmətli xanım sədr, hörmətli həmkarlarım, bu gün, yəni 18 oktyabr xalqımızın həyatında çox önəmli bir gündür. 1991-ci il 7 mart və 18 oktyabr tarixləri çox böyük əhəmiyyət kəsb edir. 1991-ci ilin 18 oktyabrı xalqımızın həyatında müstəsna əhəmiyyətə malik bir gündür. Məhz həmin gün illər öncə başlanmış milli azadlıq hərəkatı öz hədəfinə çatdı və dövlətimizin müstəqilliyi bərpa olundu. Azərbaycan xalqı öz müstəqilliyini savaşaraq, biləyinin gücü ilə qazanıb.

28 may tarixinin Müstəqillik Günü, 18 oktyabr tarixinin isə Müstəqilliyimizin Bərpası Günü kimi təsbit olunması Azərbaycanın dövlət suverenliyinin məhz 1918-ci ildə bərqərar olması tarixi faktına əsaslanır. Bu, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Xalq Cümhuriyyətinin tam hüquqlu varisi olduğunu göstərməklə yanaşı, soydaşlarımızın tarixi torpaqlarına, o cümlədən Zəngəzura dinc yolla qayıdış perspektivi üçün əsasları daha da gücləndirir. Bu gün biz faktiki varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyəti

dövründəki milli sərhədlərimizin bərpasına nail olmuşuq, tam və qəti şəkildə bu müstəqilliyə çatmışıq.

Azərbaycanın bütün ərazisində artıq suverenliyimiz təsbit olunub. İstiqlalımız və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhunu sayqı ilə anıram. Xalqımızı 18 oktyabr dövlət müstəqilliyinin bərpası münasibəti ilə təbrik edirəm. Dövlətimiz uca olsun, xalqımız xoşbəxt olsun.

Buradan başda Ulu Öndər Heydər Əliyev olmaqla müstəqilliyimizin bərpasına səs vermiş 43 millət vəkilini də sayğı ilə anıram. Onların üstümüzdə haqqı çox böyükdür.

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən də öncə sizi Müstəqilliyin Bərpası Günü, eyni zamanda, Füzulinin işğaldan azad olunması günü münasibəti ilə təbrik edirəm.

Məlum olduğu kimi, bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirə səfər etdi.

Ötən dövrə nəzər saldıqda cənab Prezidentin son bir neçə gündə 4 mühüm sammitdə iştirak etdiyini görürük. Bir-birindən önəmli olan bu tədbirlər, eyni zamanda, Azərbaycanın çox uğurlu xarici, eyni zamanda, çoxvektorlu siyasət həyata keçirdiyini göstərir. Bu tədbirlərdə iştirak müxtəlif ölkələrin liderləri tərəfindən Prezident İlham Əliyevə göstərilən yüksək diqqətin, eyni zamanda, son illər Azərbaycana artan yüksək ehtiramın, etimadın və ölkəmizin beynəlxalq nüfuzunun bariz göstəricisidir. Bu görüşdə də Amerika Birləşmiş Ştatlarının Prezidenti

Donald Tramp Prezident İlham Əliyev haqqında xoş sözlər söyləyərək onun haqqında yüksək fikirlərini bir daha bildirdi.

Onu da qeyd edək ki, Azərbaycan hər zaman İslam dünyasının ayrılmaz bir parçası kimi, regionda və ümumilikdə, dünyada sülhün, sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfələr verib. Ölkəmiz Fələstin məsələsində daim prinsipial və ədalətli mövqe sərgiləyib, nümayəndəlik açıb, məktəb inşasını üzərinə götürüb. Suriyaya ilk gündən humanitar yardım göstərib, diplomatik nümayəndəliyini açıb, yenidən dirçələn Suriyanın enerji təhlükəsizliyində mühüm rol oynayıb.

Bu gün, eyni zamanda, Azərbaycan İsraillə də çox yaxşı əlaqələrə malikdir. Məhz bu əlaqələr nəticəsində Azərbaycan Türkiyə–İsrail, Suriya–İsrail danışıqlarında vasitəçilik missiyasını uğurla yerinə yetirir. Bu ardıcıl və balanslı siyasət nəticəsində Azərbaycan hazırda dünyada etibarlı tərəfdaş, sözünə və mövqeyinə hörmətlə yanaşılan dövlət kimi tanınır.

Heç şübhəsiz ki, Misirə həyata keçirilən bu səfər yalnız rəsmi xarakter daşımır. Bu, həm də Azərbaycanın ərəb ölkələri və ABŞ ilə münasibətlərinin strateji səviyyədə inkişaf etdiyini göstərir.

Azərbaycanın beynəlxalq arenadakı fəallığı, xüsusi ilə Yaxın Şərqdə sülh, sabitlik və quruculuq proseslərində artan rolu ölkəmizin uğurlu, çoxşaxəli və balanslı xarici siyasət xəttinin növbəti təsdiqi və təzahürüdür. Bu səfər Azərbaycanın dünya siyasətində artan çəkisini və diplomatik çevikliyini bir daha nümayiş etdirir. Qarşıda isə daha böyük hədəf və məqsədlər var. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş müəllim, Siz çıxış etmişdiniz. İndi sualınız var? Sualdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli Tənzilə xanım burada çıxış elədi, qeyd etdi. Burada – parlamentdə müstəqilliyə 271 nəfər səs veribdir. 43 nəfər istiqlal yolunda referendum əleyhinə səs verənlərdir. Tamam başqa şeydir. Müstəqillik başqa şeydir, referendum əleyhinə başqa şeydir. Biz tarixi saxtalaşdırmayaq. Tarix varsa, düzgün yazılmalıdır.

İclasa Ziyad Səmədzadə sədrlik edib. Burada oturub... Bilmirəm, iclas zalında yoxdur. 271 nəfər də səs veribdir. Azərbaycanın müstəqilliyinin qəbul olunmasına 360 nəfər parlament üzvündən 271 nəfər səs veribdir. Bunu cənab Prezident də...

**Sədrlik edən.** Siyavuş müəllim, Sizin fikriniz aydındır. Çıxışlarda bəzi nöqsanlar olur. İndi burada olan çıxışlarda da bəzi nöqsanlar oldu. Mən sonra Sizinlə bir məsələni də ayrıca danışacağam.

Fariz İsmayılzadə. Buyurun.

**Fariz İsmayılzadə.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, bugünkü çıxışımda dövlət və özəl tərəfdaşlığın əhəmiyyətini vurğulamaq istərdim. Bu yaxınlarda Nazirlər Kabinetinin sərəncamı ilə 2026-cı il üçün dövlət-özəl tərəfdaşlığı çərçivəsində su və tullantıların idarə olunması, ətraf mühit və ekologiya, nəqliyyat və daşımalar, təhsil, səhiyyə, eləcə də qida və kənd təsərrüfatı sahələri prioritet sektor olaraq müəyyən edildi. Həmçinin 2026-cı il üzrə dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısı təsdiq olunaraq İqtisadiyyat Nazirliyi

tərəfindən ictimaiyyətə təqdim olundu. Milli Məclisin qəbul etdiyi 2022-ci il 27 dekabr tarixli “Dövlət-özəl tərəfdaşlığı haqqında” Qanuna əsaslanan bu mexanizm dövlət orqanları və özəl şirkətlər arasında qarşılıqlı fay-daya əsaslanan əməkdaşlığı təşviq edərək Azərbaycanın sosial-iqtisadi tərəqqisinə innovativ yanaşmanı təmin edir.

Xüsusi olaraq vurğulamaq istərdim ki, təsdiq olunmuş layihələrdən biri təmsil etdiyim Lənkəran rayonunda bərk məişət tullantılarının idarə edilməsi layihəsidir. Bu layihə çərçivəsində tullantıların təkrar emalı və idarə olunması sistemləri təmin olunacaq, şəhərin və ətraf kəndlərin ekoloji vəziyyəti yaxşılaşdırılacaq, əhalinin sağlam həyat şəraiti təmin ediləcək, həmçinin turizm və kənd təsərrüfatı sahələri üçün əlverişli şərait yaradılacaqdır. Əminəm ki, Lənkəran layihəsinin icrası dövlət-özəl tərəfdaşlığının nəticəsi olaraq regionun davamlı inkişafına və şəhər sakinlərinin rifahına mühüm töhfə verəcəkdir.

Qeyd etmək olar ki, dövlət-özəl tərəfdaşlığı çərçivə-sində həyata keçirilən layihələrdən biri də ilk pilot layihəsi kimi dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı layihəsidir. Bu layihə suyun keyfiyyəti, mövcud infrastrukturun vəziyyəti, ətraf mühit amilləri nəzərə alınaraq müxtəlif xarici investorlarla əməkdaşlıq çərçi-vəsində icra olunur. Bu təşəbbüs dövlət və özəl sektor əməkdaşlığının praktik nümunəsi olaraq ölkəmizdə su təchizatı sahəsində innovativ həllərin tətbiqinə imkan yaradacaq.

Azərbaycan Respublikasının “Dövlət-özəl tərəfdaşlığı haqqında” Qanununun icrası çərçivəsində fikir mübadilə-sinin aparılması böyük əhəmiyyət kəsb edir. Bu fəal iştirak yalnız mövcud layihələrin uğurla icrasına deyil, həm də yeni təşəbbüslərin ortaya çıxmasına və ölkəmizdə

dövlət-özəl tərəfdaşlığı mexanizminin daha da inkişaf etdirilməsinə imkan yaradacaq. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, gündəliyin ilk 2 məsələsi beynəlxalq sənədlərlə bağlıdır və bu qanun layihələri bir oxunuşda baxılıb qəbul ediləcək.

1-ci məsələ "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Zaur Şükürova söz verirəm. Zaur müəllim, bu gün məsələni Siz təqdim edirsiniz. Buyurun.

**Zaur Şükürov**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən də ilk öncə müstəqilliyimizin bərpa olunmasının ildönümü münasibəti ilə Sizi və deputat həmkarlarımı təbrik edirəm. Bu şərəfli fəaliyyətinizdə hər birinizə davamlı uğurlar arzulayıram. Həmçinin, xanım sədr, Sizin rəhbərliyinizlə Milli Məclisin nümayəndə heyətinin Pakistan İslam Respublikasına uğurlu işgüzar səfər münasibəti ilə təbriklərimi çatdırıram. İnanırıq ki, bu səfər Azərbaycanla qardaş Pakistan və Türkiyə arasında münasibətlərin, həmçinin parlamentlərarası əlaqələrin inkişafında mühüm rol oynayacaq.

Hörmətli xanım sədr, hörmətli deputatlar, dəyərli media nümayəndələri. Layihəsini hazırda müzakirə etdiyimiz qanunla təsdiq edilməsi nəzərdə tutulan "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri

Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində 2025-ci il iyulun 9-da Əbu-Dabi şəhərində imzalanmışdır. Sazişdə malların və xidmətlərin ticarəti, investisiyalar, gömrük və ticarət prosedurlarının sadələşdirilməsi, dövlət satınalmaları, rəqəmsal ticarət, əqli mülkiyyət hüquqları, malların mənşəyinin müəyyən edilməsi, texniki fitosanitar qaydaların beynəlxalq standartlara uyğunlaşdırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi, xidmət sektorunda şəffaflıq, bazarlara çıxış və bərabər rəqabət imkanları, investisiyaların qorunması və təşviqi, habelə mübahisələrin həlli mexanizmləri ilə bağlı məsələlər müvafiq maddələrdə əksini tapmışdır. Dost və strateji tərəfdaş Birləşmiş Ərəb Əmirlikləri ilə sənaye, bərpa olunan enerji, kənd təsərrüfatı, maliyyə, logistika, turizm, tikinti və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişafına geniş imkanlar açacaq. Əhatəli, beynəlxalq standartlara cavab verən bu saziş uzunmüddətli və əhəmiyyətli hüquqi baza xarakteri daşıyır.

Hörmətli xanım sədr, hörmətli deputatlar, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilmiş və yekdilliklə dəstəklənərək Milli Məclisin pelanar iclasına tövsiyə edilmişdir. Komitəmizin adından hörmətli deputat həmkarlarımdan qanun layihəsini dəstəkləməyi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Zaur müəllim.

Hörmətli həmkarlar, ikinci bir komitədə – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Mən də bütün təbriklərə qoşuluram. Hesab edirəm ki, doğrudan da, Sizin Pakistana səfəriniz həddindən artıq vacib və əhəmiyyətlidir. Çünki əlaqələrimiz genişlənir, həmçinin İslam dünyasına, türk dünyasına xüsusi töhfələr verən məsələləri müzakirə etdiniz. Sonda da biz çox lazım olan vacib bəyanatın qəbul olunmasının şahidi olduq.

Bu gün müzakirə etdiyimiz və ətrafında fikir mübadiləsi apardığımız bu saziş də Azərbaycan üçün həddindən artıq vacibdir. Ona görə ki, Birləşmiş Ərəb Əmirlikləri Yaxın Şərqdə açar dövlətlərdən biridir. Heç də təsadüfi deyil ki, Şarm Əl-Şeyxdə də Amerika Birləşmiş Ştatlarının Prezidenti birbaşa Birləşmiş Ərəb Əmirlikləri Prezidenti Məhəmməd ibn Zaidə müraciət edərək sülh məsələsini müzakirə edirdi. Azərbaycan bütün Yaxın Şərq ölkələri ilə ən yüksək səviyyədə münasibətləri təşkil etdiyi halda, Birləşmiş Ərəb Əmirlikləri ilə xüsusi münasibətlər formalaşdırıb. Bu yaxınlarda Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin Qarabağa gəlişi, Azərbaycan Respublikasının Prezidenti ilə iqtisadi layihələrin müzakirəsi, dövlət başçımızla xüsusi münasibətlərin yaradılması bütün dünya üçün çox vacib və əhəmiyyətli mesajları özündə ehtiva edir.

Hörmətli xanım sədr, mən bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Azərbaycan Respublikasının Prezidenti heç vaxt iqtisadi məsələləri siyasiləşdirmir. Ancaq iqtisadi məsələləri o dərəcədə yüksək səviyyədə həyata keçirir ki, onlar siyasi reallığa çevrilir. Bu, fenomenal bir yanaşmadır. Biz çox görmüşük ki, iqtisadiyyatı siyasiləşdirirlər. Bu gün biz yeni bir fenomeni görürük. Bu

münasibətlərin içərisində yeni bir fəlsəfəni görürük. Ona görə də komitəmiz tam şəkildə bu sazişi yekdilliklə qəbul edib. Sizdən də xahiş edirəm, buna müsbət fikir bildirəsiniz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, səsə qoyaq. Xahiş edirəm, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

2-ci məsələyə keçirik. "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulmaq barədə qanun layihəsidir. Bu layihəyə də yenə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Zaur müəllim, Siz bu məsələni də təqdim edəcəksiniz. Buyurun.

**Zaur Şükürov**. Bir daha təşəkkür edirəm, hörməti xanım sədr. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, Azərbaycan Respublikasının Prezidenti tərəfindən layihəsi Milli Məclisə müzakirəyə təqdim olunan qanunla ölkəmizin qoşulması nəzərdə tutulan "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya" 2021-ci il yanvarın 27-də Paris şəhərində imzalanmışdır. Preambula, 22 maddə və keçid müddəalardan

ibarət olan konvensiyanın 1-ci maddəsinin 1-ci bəndi dəniz naviqasiya avadanlıqları üzrə beynəlxalq hökumətlərarası təşkilatın təsis olunmasını ehtiva edir. Məsləhətçi və texniki xarakter daşıyan təşkilatın məqsəd və hədəfləri, funksiyaları, əsas və köməkçi orqanları, üzvlük və səsvermə, maliyyələşmə, hüquqi subyektivlik, imtiyazlar və toxunulmazlıq, habelə imzalama və ratifikasiya ilə bağlı məsələlər konvensiyanın müvafiq maddələrində əks olunmuşdur.

Təşkilatın məqsədi konvensiyanın 3-cü maddəsinin müvafiq bəndlərində sadalanan hədəflərə çatmaq üçün dəniz naviqasiya avadanlığının tənzimlənməsi, təchiz edilməsi, texniki baxımı və ya istismarı ilə məşğul olan hökumətlərin və təşkilatların səylərini birləşdirməkdən ibarətdir. Ölkəmizin sözügedən konvensiyaya qoşulması, dəniz naviqasiya avadanlığının təkmilləşdirilməsi və uyğunlaşdırılması sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, gəmilərin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, təcrübə mübadiləsi və texnoloji yeniliklərin tətbiqi baxımından vacib əhəmiyyət kəsb edir.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, qanun layihəsi komitəmizdə müzakirə edilmiş və yekdilliklə dəstəklənərək Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Komitəmizin adından bir daha bu qanun layihəsini dəstəkləməyi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Səməd müəllim, bu layihəyə sizin komitədə də baxılıb. Buyurun, Siz də komitənin rəyini bildirin.

**Səməd Seyidov**. Çox sağ olun, xanım sədr. Əslində, Zaur müəllim çox yüksək səviyyədə təqdim etdi. Sadəcə, bir fikri bildirmək istəyirəm. Siz bu sazişə baxsanız, görərsiniz ki, dəniz haqqında söhbət gedir. Azərbaycan bir

məmləkət kimi dənizlərdən məhrumdur. Bizim Xəzər dənizimiz var, amma böyük dənizlərə çıxışımız yoxdur. Bax, Azərbaycanın apardığı siyasət Azərbaycanı dənizlərə, okeanlara, bütün dünyaya açır. Bax, bu sazişlər vasitəsi ilə. Biz görəcəyik ki, bundan sonra böyük və əhəmiyyətli sazişləri bizə təklif edəcəklər. Ona görə ki, apardığımız siyasət Azərbaycanı artıq tamamilə başqa bir müstəviyə qaldırıb. Bizim limanlarımız var, bizim gəmilərimiz var. Biz artıq dənizdə ən vacib rollardan birini oynayan bir məmləkətə çevrilmişik. Təbii, komitəmiz bunu ən yüksək səviyyədə dəstəkləyib və sizdən də qəbul etməyi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Çıxışa yazılanlar yoxdur, təklif də var, səsə qoyaq. Xahiş edirəm, münasibət bildirin, hörmətli həmkarlar. Mən məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyimizin qalan məsələlərinin hamısı birinci oxunuşda olan qanun layihələridir. Güman edirəm ki, birinci oxunuşun tələbləri hamının yadındadır. Növbəti məsələ "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd

edim ki, məsələ ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini, Məhkəmə-Hüquq Şurasının üzvü hörmətli Çingiz müəllim Əsgərov iclasımızdadır. Çingiz müəllim, xoş gəlmisiniz.

Hörmətli həmkarlar, bu layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən sözü hörmətli Nizami Səfərova verirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörməti deputatlar, Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim edilən qanun layihəsi Məhkəmə-Hüquq Şurasının məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqan qismində səlahiyyətlərinin dəqiqləşdirilməsi istiqamətində əhəmiyyətli addımdır. Layihəyə əsasən iki qanunda – “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” qanunlarda dəyişiklik nəzərdə tutularaq hakimin xidməti vəsiqəsi ilə bağlı məsələlər tənzimlənir. Belə ki, layihədə hakimlərin xidməti vəsiqəsi nümunəsinin Məhkəmə-Hüquq Şurası tərəfindən təsdiq edilməsi və şuranın sədri tərəfindən təqdim olunması təsbit olunmuşdur. Bununla bağlı, həmçinin Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu ilə təsdiq edilən “Hakimlərin xidməti vəsiqəsi haqqında” Əsasnamənin ləğv edilməsi təklif olunur.

Hörmətli deputatlar, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, 5 dəqiqəyə keçək. Hamı

razıdır. Yazılanlar var. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, hər iki layihəyə səs verəcəyik. Məhkəmə hakimiyyəti bu gün təkcə vətəndaşlarımız üçün deyil, eyni zamanda, 30 illik işğala bais olan, məsuliyyət daşıyan şəxslərin də ədalət qarşısında cavabdehliyini təmin edir. Bu prosesə beynəlxalq təzyiqlərlə bağlı qeydlərimi sizinlə bölüşmək üçün çıxışa yazıldım.

Avropa İnsan Haqları Məhkəməsi Azərbaycanda saxlanılan 23 erməni məhbusla bağlı noyabrın 4-dək ölkəmizdən məlumat tələb edib. Bəli, Strasburq hakimləri fərdləri və dövlətləri mühakimə etmir, Avropa İnsan Hüquqları Konvensiyasına sadiqliyə nəzarət edir. Ölkəmizə beynəlxalq öhdəliklərlə bağlı daim məsələlər xatırladılıb. Amma Azərbaycan bu yöndə sabit bir mövqe göstərib. Lakin bizdən istənilən hesabat deyil, immunitetdir, "əsir" adı altında məhbuslara, onların əməllərinə bəraət qazandırmaq cəhdidir.

Xatırladaq ki, Avropa hüquq şəbəkəsinin, mediasının və maliyyəsinin güclü dəstəyi altında olanlardan 16 nəfər Bakı Hərbi Məhkəməsi qarşısına çıxarılanlardır. Onda biz Qərb ədliyyəsindən soruşuruq: Slobodan Miloşeviçi dünyanın gözü qarşısında hərbi tribunalda mühakimə edənlər 23 min şəhidimizin, 1 milyon qaçqının, köçkünün hüquqlarını pozanları, yüzlərcə şəhər və kəndimizi dağıdanları, qiymətsiz mədəni sərvətlərimizi mənimsəyənləri nədən qoruyurlar? İşğala susanlar cinayətlərdə günahlandırılanları qurban və qəhrəmana çevirib niyə himayə edirlər?

Diqqət edin, Ermənistan hakimiyyəti bu şəxslərin çoxunu geri istəmir. Çünki bilir ki, onlar döyüş əməliyyatları zamanı deyil, atəşkəsdən sonra terrorçuluq, qanunsuz

silahlı birləşmələrin tərkibində iştirak və sərhədi pozma kimi onlarca qanunsuz əməldə suçlanırlar.

Kopenhagendə Avropa Siyasi Birliyi Vaşinqton razılaşmalarını alqışladı, lakin onun məhkəməsi hüquqi deyil, siyasi qərarlar çıxarır. Sülhə ən böyük zərbəni "əsir" adı ilə separatizm və terroru müdafiə etmək vurur.

Son 30 ildə Avropa Məhkəməsi yalnız Çıraqov qardaşları kimi az sayda azərbaycanlının haqlarını tanıyıb. İndi təklif edirik ki, doğma yurdlarına qayıtmaq istəyən yüz minlərcə insanımız öz evini Avropa Məhkəməsindən tələb etsin. Onda görəcəyik, kim ədalətlidir.

Azərbaycan dövləti mühakimə olunan şəxslərə sentyabrın 20-ə qədər reinteqrasiya və sülh təklif etdi. Paşinyan özü belə həmin separatçıları onu devirmək üçün İrəvana gəlməkdə ittiham edir. Biz sülh təklif etdik, cavabları terror oldu. Reinteqrasiyaya çağırdıq, silahla qarşılıq verdilər. Bəs hansı beynəlxalq təşkilat bizim savaşımızda ədalətli hakim olub? Əgər Beynəlxalq Qırmızı Xaç Komitəsinin maşınları ilə Xankəndiyə silah daşıyırlarsa, deməli, müqəddəs xaçı da "öldür" deyən Eçmiədzin katolikosluğuna qurban veriblər.

Azərbaycan dövləti hərbi əsirləri 2022-ciilədək azad edib. Avropa məhkəmələri Abxaziya, Krım, Donetsk kimi ərazilərdə silah tətbiq edənləri "işğalçı" adlandırır, onlara sanksiya tətbiq edir. Bəs Qarabağın azadlığından niyə qorxurlar? Azərbaycan Ermənistanla sülh yolunda son maneələri aşarkən iki Qafqaz dövlətinin barışını istəməyən qüvvələr 30 illik işğalın simalarına azadlıq tələb edir. Əgər Beynəlxalq Ədalət Məhkəməsi, həqiqətən, Nürnberq olsaydı, onda həmin şəxsləri onlara təhvil vermək mümkün idi. Lakin kim zəmanət verir ki, sabah qukasyanları, arutyunyanları azad edib yenidən üstümüzə silahla

göndərməyəcəklər? Ona görə də ən ədalətli məhkəmə Vətən müharibəmiz, ən adil hakim Zəfərimizdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən bundan öncə dedim ki, birinci oxunuşdur. Xahiş edirəm, qanun layihəsinin birinci oxunuşunun tələblərinə riayət etmək lazımdır. Qanun layihəsini bir tərəfə qoyub ayrı məsələdən danışmaq olmaz.

Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi hakimlərin xidməti vəsiqəsinin nümunəsinin təsdiqinin və təqdim olunmasının Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilməsini nəzərdə tutur. Hesab edirəm ki, təqdim olunan qanun layihəsi Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi və Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin normativ hüquqi əsasda dəqiqləşdirilməsi baxımından müsbət qiymətləndirilməlidir.

Qanun layihəsi hakimlərin xidməti vəsiqələrinin vahid nümunədə hazırlanmasının və təsdiqinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilməsi ilə bağlı mexanizmin hüquqi əsasını müəyyən edir. Bu hakim statusunun rəmzi göstəricisi olan vəsiqələrin verilməsində inzibati asılılıqların ləğv edilməsi baxımından vacib əhəmiyyət kəsb edir.

"Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun 1-ci və 4-cü maddələri Məhkəmə-Hüquq Şurasını, məhkəmə hakimiyyətini özünüidarə orqanı kimi müəyyən edir və məhkəmə hakimiyyətinin azad və müstəqil fəaliyyət

göstərməsi prinsipini təsbit edir. Bu baxımdan hakimlərin xidməti vəsiqələrinin verilməsini məhz həmin o orqanın səlahiyyətlərinə aid edilməsi məhkəmə sisteminin daxili müstəqilliyini daha da möhkəmləndirir və bütövlükdə, məhkəmə hakimiyyətinin konstitusion azadlıq prinsipinə uyğun fəaliyyətinə xidmət edir. Eyni zamanda, layihə hakimlərin xidməti vəsiqəsi haqqında əsasnamənin tələblərinə uyğun şəkildə formalaşdırıldığı üçün hüquqi texnika baxımından da zəruri, sistematik uyğunluq təmin olunmuşdur.

2012-ci il tarixli Məhkəmə-Hüquq Şurasının qərarları və 2011-ci il dəyişiklikləri ilə hüquqi konfiqurasiya arasında ardıcıllığın qorunması hüquq tətbiqetmədə sabitlik yaradır.

Bundan əlavə, layihədə prokurorluq orqanlarında mövcud olan oxşar tənzimləmələrin Baş prokuror tərəfindən təsdiqlənən xidməti vəsiqə nümunəsinin də nəzərə alınması sistemli hüquq normalarının uzlaşdırılması baxımından məqsədəuyğundur. Bu, hüquq-mühafizə və məhkəmə orqanları arasında normativ balansı qoruyur və vahid idarəçilik standartının formalaşmasına xidmət edir. Həmçinin təqdim olunan qanun layihəsi hakimlərə xidməti vəsiqələrin verilməsi və istifadəsi sahəsində normativ boşluqları aradan qaldırır, məhkəmə hakimiyyətinin institusional müstəqilliyini möhkəmləndirir və Məhkəmə-Hüquq Şurasının funksional səlahiyyətlərini dəqiqləşdirir.

Layihənin qəbul edilməsi hüquqi dövlət prinsiplərinə, hakimiyyət bölgüsünə və müstəqil məhkəmə hakimiyyəti ideyasına tam uyğundur. Buna görə də hesab edirəm ki, bu qanun layihəsi hüquqi baxımdan məqsədəmüvafiq, konstitusion prinsiplərə uyğun və normativ sistemlə uzlaşan bir qanun layihəsidir. Bu qanun layihəsinin qəbul

edilməsi məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsinə və hüquqi idarəetmənin təkmilləşməsinə xidmət edəcək.

Qanun layihəsini dəstəkləyirəm və həmkarlarımı da dəstəkləməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Vasif müəllim. Bir daha ətraflı məlumat verdiniz.

Tənzilə Rüstəmxanlı. Buyurun.

**Tənzilə Rüstəmxanlı.** Hörmətli Sahibə xanım, mən Sizə çox böyük hörmət edirəm, ona görə məsələni uzatmaq istəmirəm. Sadəcə, gündəlikdə müzakirə olunan məsələyə də müsbət yanaşıram. Mən buna cavab verməsəm, olmaz, çünki Siyavuş müəllim mənə “saxtakar” dedi. 1991-ci il 7 mart tarixi SSRİ-nin bərpa olunması ilə əlaqədar referendumun keçirilməsi ilə bağlı idi. Deputatların cəmi 43 nəfəri, o cümlədən Heydər Əliyevin də təmsilçiliyi ilə referendumun əleyhinə səs vermişdi. Bu da müstəqilliyimizə xidmət idi. Mən bunu demək istəyirəm. Məni yanlış anladı. Mən o zaman bu proseslərin canlı şahidi idim və müstəqilliyimizi qazanan o insanların içində ən çox qadınlar ön sıralarda idi. O zaman tarixi belə yazırdıq: biz müstəqilliyimizə gedən yolda mübarizə aparaq.

Mən çox istərdim ki, bu gün dövlət çevrilişində əli olan, Azərbaycan dövlətinin ən yüksək məqamlarını işğal etmiş Ramiz Mehdiyevin əleyhinə 10 il bundan qabaq Siyavuş Novruzov bir cümlə deyib tarix yazaydı.

**Sədrlik edən.** Tənzilə xanım, Siz eşitdiniz, mən Siyavuş müəllimin çıxışından sonra dedim ki, Siyavuş müəllim, bəzi məsələləri danışarıq. Sabah bayram günüdür. Biz bu gün bayram təbrikləri ilə iclasımızı başladıq. Biz bu gün möhtərəm cənab Prezidentə, çox hörmətli Mehriban xanım Əliyevaya, Birinci vitse-prezidentə

təbriklər göndərəcəyik. Mən düşünürəm ki, bura bu söhbətlərin yeri deyil. Yenə təkrar edirəm, mən öncədən Siyavuş müəllimə dedim ki, Siyavuş müəllim, bəzi məsələlərlə bağlı mən Sizinlə danışacağam.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Siyavuş müəllim, xeyr, mən Sizə ikinci dəfə söz verməyəcəyəm. Xahiş edirəm.

Məsələni səsə qoyuram. Bizim burada hörmətli qonağımız var. Çox vacib məsələdir. Nizami müəllim təqdim etdi, Vasif müəllim çox ətraflı danışdı. Gəlin, qanunumuza hörmət qoyaq. Biz qanun layihəsini qəbul etməliyik, çünki müzakirə olundu. Təklif nədir, hörmətli həmkarlar?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyuruq. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, birinci oxunuşda qanun qəbul edildi.

Mənə məlumat verdilər ki, Çingiz müəllim çıxış etmək istəyir. Çingiz müəllim, buyurun.

**Çingiz Əsgərov,** *Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü.*

Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli Milli Məclis deputatları, birinci oxunuşda qəbul edilmiş qanun layihəsi məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin

olunması istiqamətində vacib addımlardan biridir. İlk növbədə bu dəyişiklik hakimlərin xidməti vəsiqələrinin təsdiq və təqdim edilməsi ilə bağlı tənzimləmədə vahid yanaşmanı təmin edəcəkdir.

Qanun layihəsinin müzakirəsində iştirak edən, səmərəli fikir və təkliflər verən və onları dəstəkləyən hörmətli deputatlara təşəkkürümü bildirmək istərdim. İnanıram ki, qanun layihəsinin qəbulu ölkəmizdə ədalət mühakiməsinin təkmilləşdirilməsinə və məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsinə mühüm töhfə verəcəkdir.

Hörmətli Sahibə xanım, hörmətli Milli Məclisin deputatları, məlum olduğu kimi, bu həftə ərzində Azərbaycanda – Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci sessiyası keçirilmişdir. Bu möhtəşəm beynəlxalq tədbirin iştirakçılarına möhtərəm cənab Prezident müraciət ünvanlayıb. Həmçinin sessiyanın iştirakçıları tam tərkibdə bu möhtəşəm binaya gəlmişdi və hörmətli Sahibə xanım tərəfindən qəbul edilmişdilər. Mən bununla bağlı Sizə ayrıca minnətdarlığımı bildirmək istərdim. Bu, Azərbaycanda hakimiyyət qollarına, məhkəmə hakimiyyətinə göstərilən hörmətin, münasibətin bir göstəricisidir. Buna görə də mən xüsusi vurğulamaq istərdim, bu sessiyanın iştirakçıları bu münasibətə görə də bizə ayrıca minnətdarlıq bildirmişdilər ki, Azərbaycanda, həqiqətən, demokratik əsaslarla fəaliyyət göstərən dövlət və hakimiyyət qolları arasında qarşılıqlı hörmət, qarşılıqlı münasibətlər, əməkdaşlıq mövcuddur. Bununla bağlı mən Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Çingiz müəllim.

Siz də sağ olun ki, gəldiniz.

İndi isə, hörmətli həmkarlar, biz işimizə davam edirik. Bizim növbəti məsələmiz "Dövlət qulluğu haqqında"

Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Nizami müəllim, yenə də məsələni Siz təqdim edirsiniz. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü qaydasında "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmişdir. Xatırlatmaq istərdim ki, dövlət başçısının 2018-ci il 23 noyabr tarixli 739 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"da nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi üçün dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinin vəziyyəti mütəmadi olaraq öyrənilməsi və həmin qanunvericiliyin təkmilləşdirilməsi üçün zəruri addımların atılması nəzərdə tutulmuşdur.

Layihəyə əsasən "Dövlət qulluğu haqqında" Qanunun 28.12-ci maddəsində dəqiqləşdirmə aparılaraq "müvafiq icra hakimiyyəti orqanı" sözlərinin "yerli icra hakimiyyəti orqanları rəhbərləri müavinləri" sözləri ilə əvəz edilməsi təklif edilir, elə bir dəyişikliyin əsas məqsədi müvafiq qanunun normalarının hüquqi müəyyənliyinin təmin olunmasından ibarətdir.

Hörmətli deputatlar, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim.

Heç kim çıxışa yazılmayıb. Səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Bu məsələ ilə bağlı məlumatı komitənin sədri hörmətli Azər Əmiraslanov verəcək. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim etdiyimiz qanun layihəsi 5 normativ hüquqi aktda dəyişikliyi nəzərdə tutur. Bu layihə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nın icrasından irəli gəlir. Bu proqramın 2.1-ci bəndində milli akkreditasiya qurumunun beynəlxalq standartın tələblərinə uyğunlaşdırılması, müvafiq akkreditasiya üzrə beynəlxalq və regional təşkilatlara tam hüquqlu üzvlüyünün təmin edilməsi və qarşılıqlı tanınma sazişlərinin bağlanılması nəzərdə tutulmuşdur.

Azərbaycanda da milli akkreditasiya qurumu Azərbaycan Respublikası Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyindəki Azərbaycan Akkreditasiya Mərkəzi publik hüquqi şəxsdir. İndiyə kimi həyata keçirilən tədbirlər çərçivəsində akkreditasiya qurumu cari ildə Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatına və Asiya–Sakit Okean Akkreditasiya əməkdaşlığına tam hüquqlu üzv qəbul edilmişdir.

Qeyd olunan regional və beynəlxalq təşkilatlara üzvlük çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması zərurəti yaranmışdır və adıçəkilən 5 normativ hüquqi aktda dəyişikliklərlə bağlı qanun layihəsi hazırlanmışdır.

Layihəyə əsasən uyğunluğu qiymətləndirən qurumların əhatə dairəsi genişləndirilir və səriştəlilik sınaqlarının təşkili üzrə təminatçıların, validasiya orqanlarının və verifikasiya orqanlarının da uyğunluğunu qiymətləndirən qurumlar sırasına daxil edilməsi təmin edilir. Bununla əlaqədar qanuna yeni anlayışlar – səriştəlik sınağı, validasiya, verifikasiya əlavə edilir. Eləcə də uyğunlaşdırma çərçivəsində 4 qanuna düzəlişlər təklif olunur.

Qanun layihəsi uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya sisteminin təkmilləşdirilməsinə və beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, bununla da akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən verilən uyğunluq sənədlərinin beynəlxalq səviyyədə tanınmasına xidmət edəcəkdir.

Komitə tərəfindən yekdilliklə qərar qəbul edilmişdir. Hörmətli həmkarlarımız tərəfindən bu layihənin birinci oxunuşda dəstəklənməsini xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, bu məsələyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılmışdır. Mən indi komitənin üzvü hörmətli Naqif Həmzəyevə söz verirəm. Naqif müəllim, bu gün Siz təqdim edirsiniz. Buyurun.

**Naqif Həmzəyev,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü.*

Hörmətli xanım sədr, təşəkkür edirəm. Nəzərinizə çatdırım ki, bu dəyişikliklər Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri tərəfindən də yekdilliklə qəbul edilmişdir. Səsə qoyulmasını və dəstəklənməsini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Çıxışa heç kim yazılmayıb. Mən birinci oxunuşda məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə, Arzu müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Qanunlarda dəyişiklik edilməsinin əsas məqsədi müasir çağırışlara uyğun olaraq, bu sahədə aparılan islahatlarla və buna uyğun olaraq, təkmilləşdirmələrlə bağlıdır. Təqdim edilən qanun layihəsi ixtisaslaşmış hərbi qulluqçuların bilik və bacarıqlarından ölkəmizin müdafiəsində daha səmərəli və uzunmüddətli istifadənin təmin edilməsi, gizirlərin və miçmanların həqiqi hərbi xidmətkeçməsi qaydalarının və bir sıra normaların təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Belə ki, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, qüvvədə olan 12-ci maddəsinin "q" bəndinə və 38.1.4-cü maddəsinin tələblərinə əsasən bütün gizir və miçmanlar üçün dinc dövrdə həqiqi hərbi xidmətdə olmanın müddəti 5 il müəyyən edilmişdir.

Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsilli müəssisələrdə, habelə xarici ölkələrin analoji orta ixtisas təhsilli müəssisələrində təhsil almış hərbi qulluqçuların ixtisaslaşmış peşəkar kadr olduğunu nəzərə alaraq onların bilik və bacarıqlarından ölkəmizin müdafiəsində daha uzunmüddətli istifadə olunması məqsədi ilə layihədə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsilli müəssisələrini, habelə xarici ölkələrin analoji orta ixtisas təhsili müəssisələrini bitirmiş gizir və miçmanların dinc dövrdə həqiqi hərbi xidmətdə olma müddətinin 10 il müəyyən edilməsi təklif edilir.

Adıçəkilən qanunların müvafiq olaraq qüvvədə olan 26-cı maddəsinin "v" bəndində və 36.1.3-cü maddəsində

gizirlərin və miçmanların həqiqi hərbi xidmətinə qəbul olunması mümkün olan şəxslərin siyahısında 40 yaşınadək hərbi vəzifəlilər də, təbii ki, zabitlərdən başqa nəzərdə tutulmuşdur. Layihədə "40 yaşınadək hərbi vəzifəlilər" ifadəsinin konkretləşdirilərək "hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan gizirlər və miçmanlar, 40 yaşınadək ehtiyatda olan əsgərlər, matroslar, çavuşlar" ifadəsi ilə əvəz edilməsi təklif edilir.

Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074 nömrəli Qanunu ilə "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq olaraq 156-cı və 41-ci maddələrinə Qeyd hissəsi əlavə edilmişdir. Qeyd hissəsinə əsasən zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycan Respublikasının və xarici ölkələrin ali təhsil müəssisələrində magistratura, rezidentura, doktorantura, adyunktura səviyyələri üzrə əyani təhsil alma müddəti, eləcə də ixtisasartırma, kadrların yenidən hazırlanması, staj keçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti bir ildən çox olduqda öz arzusu ilə ehtiyata buraxılma üçün nəzərdə tutulmuş 10 il müddətinə daxil edilmir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün təhsil müəssisələrində hazırlanmış zabitlərin əldə etdikləri peşəsi və bilikləri ilə Silahlı Qüvvələrə daha səmərəli töhfə verməsinin və təcrübələrinin gənc zabitlərlə bölüşməsinin təmin edilməsinə şərait yaradılacaq. Bunun üçün, həmçinin ölkəmizin müdafiəsində zabitlərin uzunmüddətli xidmətini təmin etmək, peşəkar kadr potensialını möhkəmləndirmək məqsədi ilə zabitlərin həqiqi hərbi xidmət dövründə əyani bakalavriat əsas (baza ali tibb) təhsili müddətinin də öz arzusu ilə ehtiyata buraxılma üçün

nəzərdə tutulmuş 10 il müddətinə daxil edilməməsi təklif edilir.

Bundan başqa, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin qüvvədə olan 150-ci maddəsinə əsasən hərbi qulluqçular rəsmiləşdirilmiş icazə əsasında ali mülki və orta ixtisas təhsil müəssisəsində hərbi ixtisasına yaxın olan və ya icra etdiyi işin xarakterinə uyğun olan xüsusi biliklərin artırılmasına imkan verən ixtisaslar üzrə, habelə mülki ali təhsil müəssisələrinin, nazirlik və komitələrin nəzdindəki kurslarda (xüsusi fakültələrdə) oxuya bilərlər. Təcrübədə bəzi hallarda hərbi qulluqçuların ali mülki və orta ixtisas təhsilli müəssisələrində təhsil alması ilə yanaşı, eyni zamanda, öz hərbi xidmət vəzifələrini yerinə yetirməsi mümkünsüz olur. Qeyd olunan halın qarşısını almaq məqsədi ilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.2-ci maddəsində nəzərdə tutulan hərbi qulluqçularının sərəncamda olma müddətlərinə yeni müddətin – "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 150-ci maddəsinə uyğun olaraq, əyani təhsil almaqla əlaqədar, yəni vəzifədə saxlanılması mümkün olmadığı hallarda hərbi qulluqçunun təhsil müddətində sərəncamda olmasının əlavə edilməsi təklif edilir.

Eyni zamanda, adıçəkilən qanunların müvafiq olaraq qüvvədə olan 172-ci və 44.1-ci maddələrində əksini tapan cədvəllərdə əsgərlər, matroslar, çavuşlar, gizirlər və miçmanlar üçün ehtiyatda olmağın son yaş hədləri eyni sətirdə müəyyən edilmişdir. Həmin maddələrdə əks olunan cədvəllərə dəyişiklik edilərək gizir və miçmanlar üçün ehtiyatda olmağın yaş hədlərinin ayrıca sətirdə müəyyən edilməsi, birinci dərəcə ehtiyatda olan gizir və miçmanlar üçün ehtiyatda olmanın yaş həddinin 35 yaş, ikinci dərəcə

ehtiyatda olan gizir və miçmanlar üçün 45 yaş və üçüncü dərəcə ehtiyatda olan gizir və miçmanlar üçün isə 55 yaş olması təklif edilir.

Adıçəkilən qanunların müvafiq olaraq 175-ci və 45.2-ci maddələrində ehtiyatda olan hərbi vəzifəlilərin hərbi təlim toplanışlarına çağırılması müddətləri nəzərdə tutulmuşdur. Təklif edilən dəyişikliyə əsasən birinci dərəcəli ehtiyatda olanlar hərbi vəzifəlilərin hər dəfə 1 ayadək müddətə on dəfəyədək hərbi təlim toplanışına çağırılması nəzərdə tutulur. Bununla yanaşı, müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilərin hər dəfə 2 ayadək müddətə beş dəfəyədək hərbi təlim toplanışlarına çağırılması təklif edilir.

Yuxarıda qeyd olunanlarla yanaşı, layihədə bir sıra texniki xarakterli dəyişikliklər də nəzərdə tutulmuşdur. Layihə həmkarlara paylanmışdır. Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə edilib. Əlavə rəy və təklif olmadığından müzakirə üçün Milli Məclisin plenar iclasına birinci oxunuşa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim. Siz ətraflı məlumat verdiniz.

Müzakirəyə keçirik. Ancaq görürəm ki, yazılanlar yoxdur. Təklif var, səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi isə "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin təqdimatına keçirik. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu gün layihəni komitənin üzvü Nurlan Həsənov təqdim edəcək. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, dəyərli həmkarlar, mopedlər artıq bu gün şəhər nəqliyyatının ayrılmaz hissəsinə çevrilib. Buna görə də qanunvericiliyin məhz günün reallıqlarına uyğunlaşdırılması həm insanların təhlükəsizliyi, həm də nəqliyyatın səmərəli və ekoloji baxımdan düzgün idarə olunması üçün zəruridir. Mopedlər həm piyada, həm də avtomobil axını arasında hərəkət etdiyindən onların düzgün qaydalarla idarə olunması mümkün risklərin, qəzaların qarşısını almaq, qayda pozan şəxslərin identikləşdirilməsi və məsuliyyətə cəlb oluna bilməsi üçün önəmlidir.

Hazırkı qanunvericilik yeni tipli nəqliyyat vasitələrinin, o cümlədən mopedin istifadəsini tam tənzimləmir. Bu isə hüquqi boşluqlar yaradır. Qanun layihəsinin məqsədi də məhz bu boşluqları aradan qaldırmaqdır.

Digər tərəfdən, mopedlər ekoloji baxımdan daha qənaətcil vasitələrdir. Ona görə də onların istifadəsini

təşviq etmək məqsədəuyğundur. Amma bu, yalnız təhlükəsizlik və məsuliyyət mexanizmləri müəyyənləşdirildiyi halda, səmərəli ola bilər.

Nəhayət, qanunvericiliyin yenilənməsi, eyni zamanda, cəmiyyətimizdə baş verən dəyişikliklərə, yeniliklərə uyğunlaşmaq deməkdir. Mopedlərin sayı artdıqca onların istifadəsini tənzimləmək, təhlükəsizliyi təmin etmək və ictimai nizami qorumaq üçün yeni normalar tətbiq etmək ehtiyacı yaranır.

Deputat həmkarlarımdan bu layihəni dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Çıxış etmək istəyən var. Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media mənsubları. İlk növbədə, xanım sədr, Sizi Pakistan İslam Respublikasında uğurlu səfəriniz münasibəti ilə təbrik edirəm. Burada Dövlət Müstəqilliyinin Bərpası Günü münasibəti ilə, həmçinin Füzuli günü münasibəti ilə səslənən bütün təbriklərə qoşuluram.

Müzakirəyə təqdim olunan qanun layihəsində yer alan dəyişikliklərin əsas məqsədi, məlum olduğu kimi, son illərdə sürətlə artan mopedlərin, asma mühərrikli velosipedlərin və kiçik elektrik nəqliyyat vasitələrinin hüquqi statusunu müəyyənləşdirmək, onların qeydiyyatı, idarə olunması qaydalarını qanunvericilik səviyyəsində tənzimləməkdir.

Uzun müddət nəqliyyat vasitələri ilə bağlı çərçivələr qanunvericilikdə dəqiq müəyyən edilmədiyinə görə nə tam şəkildə mexaniki nəqliyyat vasitəsi, nə də velosiped kimi qəbul olunurdu. Bu isə onların dövlət qeydiyyatında, həm də yol hərəkətində iştirak qaydalarında müəyyən boşluqlar

formalaşdırırdı. Təklif olunan dəyişikliklər həmin boşluqları aradan qaldırır, moped və oxşar vasitələrin yol hərəkətində iştirakı üçün hüquqi əsaslar formalaşdırır.

Eyni zamanda, bu dəyişikliklər yol hərəkəti təhlükəsizliyinin artırılmasına da xidmət edir. Bəlli olduğu kimi, paytaxtda və böyük şəhərlərdə moped və elektrik skuterlərin iştirakı ilə baş verən yol nəqliyyat hadisələrinin artması müşahidə olunur. Bu, vətəndaşları da ciddi şəkildə narahat edir. Yeni tənzimləmələr vasitələrin idarə olunması üçün yaş həddinin sürücülük vəsiqəsi tələbinin, texniki baxış və qeydiyyat mexanizmlərinin müəyyən edilməsini nəzərdə tutur. Bu, həm sürücülərin, həm də digər yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin etməyə yönəlib, həmçinin Konstitusiyanın əsas prinsipinə, yəni bərabərlik prinsipinə, eyni zamanda, yol hərəkəti iştirakçıları arasında da tətbiq olunmasına xidmət edir.

Digər mühüm məqam, təbii ki, bu dəyişikliklərin beynəlxalq təcrübəyə, yerli qanunvericiliyin uyğunlaşmasına xidmət edir. Avropa dövlətlərinin əksəriyyətində mopedlər və az güclü mühərrikli nəqliyyat vasitələri ayrıca kateqoriya kimi qanunvericilikdə yer alır. Azərbaycan da bu istiqamətdə addım ataraq nəqliyyat idarəçiliyinin və hüquqi tənzimləmələrin beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin edir.

Dəyişikliklərin əhəmiyyəti həm də ondan ibarətdir ki, onlar ekoloji baxımdan təmiz və enerji baxımından səmərəli nəqliyyat vasitələrinin istifadəsini təşviq edir. Təbii ki, bu da təkcə inzibati tənzimləmə məqsədi daşımır, həm də dövlətimizin yaşıl enerji strategiyasına tamamilə uyğun gələn bir layihədir.

Hörmətli həmkarlar, təqdim olunan dəyişikliklər, bütövlükdə, "Yol hərəkəti haqqında" Qanunun müasir

dövrün reallıqlarına uyğunlaşdırılmasının, yol hərəkətinin təhlükəsizliyinin və idarəetmənin keyfiyyətinin yüksəldilməsinin təmin olunmasına xidmət edir. Bu isə öz növbəsində həm də vətəndaşların məsuliyyətli davranışını stimullaşdıracaq, həm də ictimai təhlükəsizliyin səviyyəsini artıracaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyacağam. Buyurun, qanun layihəsi birinci oxunuşda səsə qoyulur.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 24-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***17 oktyabr 2025-ci il***

**Azay Quliyev.** Məlum olduğu kimi, üç gün öncə Prezident Administrasiyasına uzun illər rəhbərlik etmiş Ramiz Mehdiyev barəsində dövlətə xəyanət və dövlət çevrilişinə cəhd maddələri ilə cinayət işi açılıb və məhkəmə onun barəsində 4 aylıq ev dustaqlığı haqqında qərar verib. Bu, təkcə hüquqi deyil, həm də siyasi və mənəvi baxımdan münasibət bildirilməsi tələb olunan ciddi bir məsələdir. Çünki söhbət sıradan bir şəxsdən deyil, dövlətin ən yüksək idarəetmə pilləsində uzun illər mühüm vəzifələr daşımış bir şəxsdən gedir.

Bəzi şəxslər bu məsələ ilə bağlı açıqlama verməkdən çəkinərək "istintaqın nəticələrini gözləmək lazımdır" kimi mövqelər irəli sürürlər. Əlbəttə, hüquqi proseslərə hörmətlə yanaşmaq vacibdir. Lakin eyni zamanda, unutmaq olmaz ki, əgər Dövlət Təhlükəsizliyi Xidməti bu qədər ağır maddələrlə cinayət işi açıbsa, bu, təsadüfi deyil. Bu o deməkdir ki, ortada kifayət qədər ciddi faktlar, sübutlar və danılmaz dəlillər mövcuddur.

Əminəm ki, istintaq orqanları qısa müddət ərzində təhqiqatı tamamlayacaq, Ramiz Mehdiyevin və bu məkrli planda əli olan hər kəsin əməllərini ifşa edən sübutları məhkəməyə təqdim edəcək. Məhkəmə isə dövlətə xəyanət etmiş şəxslərə qanunların tələbinə uyğun olaraq, ən sərt və ədalətli cəzanı verəcəkdir. Bu cəza təkcə bir və bir qrup şəxsin məsuliyyətə cəlb olunması üçün deyil, cəmiyyətə açıq və qəti mesaj vermək üçün də vacibdir:

1. Dövlətə xəyanət edən heç kim cəzasız qalmayacaq.

2. Heç kəs dövlətin sabitliyinə və təhlükəsizliyinə qarşı çıxmağı ağlından belə keçirməsin.

3. Dövlətə sədaqət və xəyanət arasında seçim edənlər üçün dövlətin mövqeyi birmənalı və dəyişməzdir.

Digər tərəfdən, bu hadisə bir daha göstərir ki, xarici təhlükələrlə uğurla mübarizə aparan dövlətimiz və onun hüquq mühafizə orqanları daxili xəyənatkarların üzə çıxarılmasında da peşəkarlıq, vətənpərvərlik və dövlətə sədaqət nümayiş etdirirlər. Ona görə də Azərbaycanda heç kim, heç bir qüvvə ictimai və siyasi sabitliyi poza, xalq–hakimiyyət birliyini zədələyə, dövlətin konstitusion quruluşuna qarşı çıxa bilməz. Bu cür xəyallara düşənlər, xəyanətə yuvarlananlar, dövlətin daxilində gizlənərək öz şəxsi ambisiyalarını milli maraqlardan üstün tutanlar bu gün olduğu kimi, sabah da qanun qarşısında cavab verəcəklər.

**Azər Kərimli.** Bu gün Füzuli şəhərinin işğaldan azad edilməsindən 5 il ötür. 17 oktyabr artıq Azərbaycanın rəsmi təqvimində mühüm simvolizm daşıyır. Bu, sadəcə təqvimdə bir tarix deyil, həm də xalqın yenidən doğuluşunun, suverenliyinin və milli ləyaqətin rəmzinə çevrilmişdir. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı Füzuli istiqamətində aparılmış döyüşlər ən çətin və qanlı mübarizələrdən biri oldu. Düşmən illərcə bu ərazidə çoxmərhələli istehkamlar qurmuş, təmas xəttində keçilməz sədlər yaratmışdı. Beynəlxalq hərbi ekspertlər belə bu bölgənin azad olunmasını aylarca vaxt tələb edən əməliyyat hesab edirdilər. Lakin Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun peşəkarlığı, texnoloji üstünlüyü və əsgər ruhunun sarsılmazlığı sayəsində bu ərazilər planlaşdırılandan daha qısa müddətdə və böyük strateji qələbə ilə azad olundu.

İşğaldan sonra bu torpaqlar təkcə dağıntılarla deyil,

həm də minlərcə basdırılmış mina ilə “miras” alınmışdır. Füzuli işğaldan azad edilən rayonlar arasında mina ilə ən çox çirkləndirilmiş ərazidir. Bu fakt təkcə təhlükəsizlik deyil, həm də bərpa və yenidənqurma prosesləri üçün ciddi maneə kimi qalır. Rəsmi məlumatlara görə, rayonda yüz mindən çox mina basdırılmış və onların təmizlənməsi prosesi hələ də davam edir.

Bununla belə, dövlət səviyyəsində görülən bərpa tədbirləri və strateji planlaşdırma bu ərazilərin yenidən həyat mənbəyinə çevrilməsini təmin edir. Prezident İlham Əliyevin tapşırığı və rəhbərliyi ilə Füzuli şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Plan təsdiqlənmiş və irimiqyaslı yenidənqurma layihələri həyata keçirilməyə başlanmışdır. Bu çərçivədə enerji infrastrukturu, yollar, sosial obyektlər və ictimai binalar tikilir. Füzuli Beynəlxalq Hava Limanı, Zəfər Yolu, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu, müasir yarımstansiyalar və su anbarları artıq istifadəyə verilmişdir.

Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı təmin olunur. Artıq minlərcə insan Füzuliyə qayıtmış və şəhərin sakinlərinə çevrilmişdir. 2026-cı ilin sonunadək yalnız Füzuli rayonunda 22 min nəfərin məskunlaşdırılması planlaşdırılır. Bu prosesin məqsədi təkcə fiziki məskunlaşma deyil, həm də sosial reabilitasiya, vətənə qayıdış ruhunun gücləndirilməsidir.

Qardaş ölkələrin dəstəyini qeyd etmək yerinə düşərdi. Özbəkistanın təşəbbüsü ilə Füzulidə Mirzə Uluqbəy adına müasir məktəb, Qazaxıstanın təşəbbüsü ilə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi inşa olunmuşdur. Bu layihələr təkcə maddi yardım deyil, həm də mənəvi həmrəyliyin, türk dünyası birliyinin təzahürüdür.

Prezident İlham Əliyevin mütəmadi səfərləri Füzuli rayonuna göstərilən diqqətin təzahürüdür. Təməlqoyma mərasimləri, yeni layihələrin açılışı, sosial infrastrukturun genişləndirilməsi bu ərazilərin inkişafında siyasi iradənin və strateji baxışın bariz nümunəsidir. Təkcə son bir neçə ildə dövlət başçısının iştirakı ilə onlarca layihə həyata keçirilmiş, şəhər tamamilə yeni urbanizasiya mərhələsinə qədəm qoymuşdur.

Bu gün Füzuli dağıntılardan ayağa qalxan, yenidən dirçələn, həyatın qayıtdığı və gələcəyə inamın rəmzinə çevrilən bir Azərbaycan şəhəridir. Onun timsalında xalqımızın əzmi, dözümlülüyü və birliyi təcəssüm olunur. Füzuli şəhəri günü isə bu zəfərin, dirçəlişin və milli qürurun simvolu olaraq tarixə yazılıb.

**Günay Ağamalı.** Dövlətimiz uşaq hüquqlarının müdafiəsinə hər zaman xüsusi diqqət yetirməkdədir. Bu gün müzakirəyə çıxarılan qanun layihəsi bu baxımdan atılan mühüm addımlardandır. Dəyişikliyin əsas mahiyyəti yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adının dəyişdirilərək uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar adlandırılmasıdır. Başqa sözlə desək, bu dəyişiklik uşaqların hüquqlarının qorunması sahəsində daha praktik və məqsədyönlü mexanizmin tətbiqinə xidmət edir.

Digər tərəfdən, layihədə komissiyaların səlahiyyətlərində dəyişiklik nəzərdə tutulur. Sözsüz ki, bu cür dəyişiklik uşaqların hüquqlarının müdafiəsində operativliyi artıracaq, daha effektiv mexanizmlərin tətbiqinə imkan yaradacaqdır.

Uşaqların sağlam böyüməsi, onların təhlükəsizliyinin təmin olunması və gələcəkdə vətənimizə layiq vətəndaş kimi formalaşması dövlət siyasətimizin əsas prioritetlərindən biridir. Bu baxımdan, təqdim edilən qanun layihəsi

olduqca aktualdır və zəruridir. Uşaqlarımızın hüquqlarının qorunmasına xidmət edən qanun layihəsini dəstəkləyir və ona səs verəcəyəm.

**Jalə Əliyeva.** Tarixini, keçmişini yaşatmağı bacaran xalqlar tarix səhnəsindən heç vaxt silinmirlər. Müxtəlif rejimlərin gətirdiyi qadağalar, qoyduğu tabular, verdiyi fərmanlar xalqa öz qan yaddaşını unutdura bilmirsə, deməli, bu xalq, həqiqətən, əbədiyaşar xalqdır. Azərbaycan türkü öz Kəbəsi olaraq bildiyi Türkiyəsindən təqribən bir əsr ayrı qaldı. Ancaq nə dilini unutdu, nə dinini, nə də mədəniyyətini. Qardaş ölkədə gedən bütün siyasi prosesləri, baş verən bütün hadisələri, yaranan yeni ədəbiyyatı, yazılan yeni əsərləri – hər şeyi min bir çətinliklə də olsa, izlədi, tapdı, oxudu, öyrəndi.

Uşaqlığımdan bəri evimizin əşyaları, bəzək-düzəkləri içərisində bir guşə hər zaman diqqətimi çəkirdi. Nələr var idi bu guşədə! Türkiyə bayrağı, Atatürkün portreti, Topqapı, Dolmabahçe saraylarının, Boğazın, Asma köprünün görüntüləri, türk fəsi, türk sazı və bir də türkün şanlı tarixini, coğrafiyasını, ədəbiyyatını anladan saysız-hesabsız kitablar. "Türk" sözünün yasaq olduğu dönəmlərdə bu guşəni mərhum anam, müasir Azərbaycan poeziyasına silinməz imzasını atan Nurəngiz Gün öz əlləriylə hazırlamışdı. Tam anlamıyla Türkiyənin bir parçasını evimizə köçürmüşdü sanki anam. Sanki bütün gün bu mənzərələrdən əlimiz çatmayan, ünümüz yetməyən məmləkətin havasını alırdıq. Sonra oturub gecənin yarısını gözləyirdik. Güc-bəla ilə radioda Türkiyə dalğasını ayarlayaraq, az qala, qulaqlarımızla radionun içinə girib (çünki dalğa məqsədli olaraq batırılırdı) Türkiyə radiosunun xəbərlərini, sonra da gözəlim türkülərini dinləyirdik. Gecənin bir yarısı, deyəsən, Sovetin xüsusi xidmət orqanları ya yorulurdular, ya da yuxu

tuturdu onları, bəlkə də, Allah ürəklərinə insaf salırdı və radio dalğasını azad buraxırdılar. Nəhayətində, Türkiyəni doya-doya dinləyən ruhumuz rahatlıq tapırdı.

Əlbəttə, bu anlatdıqlarım böyük həsrətin və qovuşmaq arzusunun çox kiçik, adda-budda parçalarıdır. Yaşananları bir neçə sətirə sığdırmaq mümkün deyil. Zatən həsrət və sevgi anladılmaz, yaşanır.

Şükürlər olsun ki, bütün bunlar arxada qaldı və tarixin inkaredilməz həqiqətləri öz sözünü dedi. Böyük Mustafa Kamal Paşa Atatürkün bundan bir əsr əvvəl söylədiyi "Bu gün Sovyetler Birliği dostumuzdur. Bu dostluğa ihtiyacımız vardır. Fakat yarın ne olacağını kimse bu günden kestiremez. Tıpkı Osmanlı gibi, tıpkı Avusturya–Macaristan gibi, parçalanabilir, ufalanabilir. Dünya yeni bir dengeye ulaşabilir. İşte o zaman Türkiye ne yapacağını bilmelidir. Bizim bu dostluğun idaresinde dili bir, inancı bir, özü bir kardeşlerimiz vardır. Onlara sahip çıkmaya hazır olmalıyız. Hazır olmak yalnız o günü susup beklemek değildir. Hazırlanmak lazımdır. Milletler buna nasıl hazırlanır? Manevi köprüleri sağlamlatarak. Dil bir köprüdür. Tarih bir köprüdür. Köklerimize inmeli ve olayların böldüyü tarihimizin içinde bütünleşmeliyiz. Onların bize yaklaşmasını bekleyemeyiz. Bizim onlara yaklaşmamız gereklidir" ifadələri gerçək oldu. Dəmir pərdənin pəncəsindən qurtulan Azərbaycan arxasında qardaş Türkiyəni buldu.

Tarix yalan sevmir və ləkə götürmür. Müxtəlif rejimlərin hakim ideologiyalarının uydurduğu saxta tarixlər bir gün mütləq yox olur. Biz hamımız yaxın tariximizdə bunun şahidi olduq. 20-ci yüzilliyin çalxantıları, baş verən kataklizmlər gerçək tariximizə kölgə sala bilmədi. Eləcə də saxta təbliğat maşınlarının yazdırdığı, yalan, uydurma,

saxta tarix nağılları da güclü zəkaların həqiqətinin işığında əriyib getdi. Məhz o güclü zəkaların daşıyıcıları sayəsində ilahi ədalət qalib gəldi və iki qardaş, iki sirdaş, iki doğma ölkə – Azərbaycan və Türkiyə yenidən qovuşdu.

Böyük alman filosofu Karneyl Tomas deyib: "Yer üzündə elə oğullar var ki, xalqlar onun şöhrəti arxasında gizlənib və belə oğulların sayı çox deyil". Dünyada sayı çox olmayan oğullardan birini – Mustafa Kamal Paşa Atatürkü Tanrı Türkiyəyə, Heydər Əlirza oğlu Əliyevi isə Azərbaycana bəxş etdi. Bu iki böyük isim bir əsrdə iki dəfə – biri ötən əsrin əvvəllərində, digəri isə ötən əsrin sonlarında ölkəsini və xalqını tarix səhifəsindən yox olmaq, məhv olmaq təhlükəsindən qurtararaq yeni bir dünya qurdular və milyonların atasına çevrildilər.

Hər iki lider öz iradəsi, qətiyyəti, hadisələrə operativ qiymət vermək bacarığı, heç bir riskdən çəkinməmələri ilə sübut etdi ki, onların varlığı, sadəcə, cismanilikdən ibarət deyil. Hər iki lider milli dövlətçiliyi və milli birliyi qorumaq naminə böyük bir yola çıxdı, çiyinlərini son dərəcə ağır bir yükün altına verdi. Çətinliklərə, maneələrə, iç və dış savaşlara, çevriliş cəhdlərinə mətinliklə sinə gərərək, Tanrının onlara bəxş etdiyi fədakarlıq, mübarizlik, əyilməz iradə, dəmir məntiq, özünəinam, siyasi uzaqgörənlik, ideya və fikirlərini sadə şəkildə geniş xalq kütlələrinə təlqin etmək kimi fövqəl keyfiyyətlərindən məharətlə bəhrələnərək xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyi itirmək təhlükəsindən qurtardılar.

Mustafa Kamal Atatürk ötən əsrin əvvəllərində dedi ki, "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir". Ulu Öndər Heydər Əliyev isə ötən əsrin sonlarında, 1994-cü il fevralın 9-da qardaş ölkəyə ilk rəsmi səfəri çərçivəsində Türkiyə Böyük Millət Məclisindəki tarixi çıxışı zamanı

dedi: "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir". Sonralar dillər əzbəri olan bu sözlər iki ölkənin strateji tərəfdaşlığının əbədi tərifini verən bir bəyanat kimi səsləndi və ölkələrimizin qardaşlıq münasibətlərinin yol göstərəninə çevrildi. Hər iki liderin ancaq liderlərə xas böyük bir dəqiqliklə və ustalıqla dilə gətirdikləri ifadələrin həqiqətini hər ötən gün daha dərindən anlayırıq.

Bəli, istər Heydər Əliyev, istərsə də Atatürk öz xalqına bir türk oğlu türk kimi xidmət etdilər, həm də fədakarcasına xidmət etdilər. Heçdən var yaratdılar, qüdrətli iki dövlət qurdular. Bu fədakarlığın, bu əvəzsiz xidmətin bəhrəsini bu gün doya-doya dadırıq. Bu gün dünyanın ayaqları üzərində möhkəm dayanan, inkişaf edən, azad, güclü, qüdrətli iki ölkəsinin vətəndaşı olmaqdan, iki dövlət, tək millət olmaqdan qürur duyuruq. Bu qürur üçün böyük Atatürkə və Ulu Öndər Heydər Əliyevə, onların ideyalarına borcluyuq və bu borcumuzu onların tarixi və mənəvi irsinə sahib çıxmağı, bu irsi bəd dillərdən, pis niyyətlərdən qorumağı, onların bizlərə ərmağan etdikləri bu iki cənnət məmləkətə əl və dil uzadanlara yerini göstərməyi bacarmaqla ödəyə bilərik. Yalnız o zaman əbədiyən tək millət, iki dövlət olmağın qürurunu yaşaya bilərik.

Bu gün Azərbaycan və Türkiyə bölgədə və dünyada ən yaxın dost, qardaş, sirdaş, strateji müttəfiqdir. Türkiyənin marağı Azərbaycanın marağıdır, Azərbaycanın marağı isə Türkiyənin marağıdır. Bu gün hər iki ölkə həyatının elə bir sahəsi yoxdur ki, Azərbaycan ilə Türkiyə əl-ələ verməmiş olsun. Bu gün ölkələrimizdə, bölgədə və dünyada baş verən hər bir hadisə, meydana gələn hər bir gəlişmə istər Türkiyə, istərsə də Azərbaycan üçün eyni dərəcədə əhəmiyyətlidir.

Hər iki ölkənin prezidentlərinin – Türkiyə Respubli-

kasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin timsalında Azərbaycan–Türkiyə əlaqələrinin dünənini, bu gününü və gələcəyini ehtiva edən dostluq və qardaşlıq əlaqələri, çoxsaylı səfərlər, strateji müttəfiqlik, imzalanan anlaşmalar, ən əsası 30 illik ədalətli mübarizəmizdə və 44 günlük şanlı müharibəmizdə hər an Türkiyənin yanımızda olması, eyni zamanda, Azərbaycanın da beynəlxalq müstəvidə qardaş ölkəylə eyni mövqedə durması, birlikdə kədərlənib, birlikdə sevinməyimiz birliyin və bərabərliyin izaha ehtiyacı olmayan ən üstün nümunəsi, ən yüksək zirvəsidir.

Sonda bu əhəmiyyətli konfransın təşkilatçılarına bir daha dərin minnətdarlığımı bildirərək bu birlik və bərabərliyin əbədiyyən bizlərin olması diləklərimlə birlikdə çıxışımı bir şeirlə bitirmək istəyirəm. Əslində, bu, bir aşiqin öz sevdiyinə yazdığı şeirdir. Yəni parça iki sevdalını anladır. Bu parçanı çox sevirəm və hər oxuduğumda gözlərimin önündə iki sevdalı olaraq Azərbaycan və Türkiyə canlanır.

Bir bulağın iki gözü -
biri sənsən, biri mən,
Bir almanın iki üzü -
o həm sənsən, həm də mən,
Qoşa simin titrəməsi -
biri sənsən, biri mən,
Bir pərdənin iki səsi -
o həm sənsən, həm də mən,
Bu həyat da iki rəngdir -
biri sənsən, biri mən,
Sevinc kimdir, kədər kimdir -

o həm sənsən, həm də mən.
Bu dünyaya biz gələni
həm qəmik, həm də sevinc,
Sən məndəsən, mən səndəyəm,
biri sənsən, biri mən.

**Könül Nurullayeva.** Bu gün biz Azərbaycan tarixinin şanlı və qürurlu səhifələrini bir daha yada salırıq. 44 günlük Vətən müharibəsində xalqımızın birliyi, ordumuzun gücü və müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin qətiyyəti ilə əldə etdiyimiz tarixi qələbə sayəsində bu gün bütün şəhərlərimizdə həyat yenidən canlanır.

Füzuli oktyabrın 17-də tam işğaldan azad olundu. Bu tarix təkcə bir şəhərin deyil, bütöv bir millətin qürur simvoluna çevrildi. Ən çətin hərbi şəraitdə, düşmənin qurduğu istehkamları yararaq Azərbaycan Ordusu bu torpaqları işğaldan azad etdi. Füzulinin işğaldan azad olunması ilə düşmənin beli qırıldı, qələbənin təməli məhz bu istiqamətdə qoyuldu.

Bu gün isə Füzuli yeni siması ilə Azərbaycan xalqının iradəsini, quruculuq əzmini və gələcəyə inamını təcəssüm etdirir. Burada dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydaları tətbiq olunur, yeni yaşayış massivləri, sosial obyektlər və müasir infrastruktur yaradılır. 2026-cı ilin sonuna qədər 22 min insanın Füzuliyə qayıdacağı planlaşdırılır. Geri dönənlər arasında gənc nəslin üstünlük təşkil etməsi xüsusi ilə qürurvericidir. Bu, həm də dövlətimizin gələcəyə yönəlik strateji baxışının göstəricisidir.

Füzuli bu gün həm də beynəlxalq əhəmiyyət daşıyan hava limanı ilə Qarabağın və Şərqi Zəngəzurun qapısına

çevrilib. Hər il keçirilən şəhər günü Füzulinin yeni, inkişaf edən simasının təqdimatıdır. Bu, həm də Azərbaycanın gücünün təzahürüdür.

Azərbaycan bu gün təkcə regionda deyil, qlobal miqyasda da mühüm siyasi aktora çevrilib. Misirin Şarm Əl-Şeyx şəhərində keçirilən Yaxın Şərqdə sülh sammitinə ölkəmizin dəvət alması Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir. Prezident İlham Əliyev son bir ay ərzində dörd müxtəlif beynəlxalq sammitdə iştirak edib – Avropa Siyasi Birliyinin sammitində, Türk Dövlətləri Təşkilatının zirvəsində, MDB dövlət başçılarının toplantısında və Qəzza sammitində. Bu, Azərbaycanın qlobal geosiyasi proseslərdə söz sahibinə çevrildiyini bir daha sübut edir.

Qəzza zolağında baş verən humanitar fəlakətə münasibətdə Azərbaycan hər zaman humanizm və ədalət prinsiplərini müdafiə edib. Cənubi Qafqazda separatizmin kökünü kəsmiş dövlət kimi, ölkəmiz digər münaqişə bölgələrində də sabitliyin və sülhün tərəfdarıdır. ABŞ Prezidenti Donald Trampla görüş və onun Bakı–İrəvan sülh mövzusunu gündəmə gətirməsi də Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul olunmasının aydın göstəricisidir.

Hər birinizi, Azərbaycan xalqını 18 oktyabr – Müstəqilliyimizin Bərpası Günü münasibəti ilə ürəkdən təbrik edirəm. Bu gün müstəqilliyimizin rəmzidir, azadlığımızın, dövlətçiliyimizin və suverenliyimizin təntənəsidir. Müstəqil Azərbaycan dövləti bu gün hər sahədə – siyasi, iqtisadi, hərbi və mənəvi cəhətdən güclüdür. Bizim müstəqilliyimiz əbədidir, dönməzdir və daim qorunacaq!

Qoy, Müstəqil Azərbaycan dövləti var olsun, qoy, üçrəngli bayrağımız daim ucalarda dalğalansın!

**Şahin İsmayılov.** Bu gün müzakirəyə çıxarılan "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər kifayət qədər önəmli məsələdir. Yeni dəyişikliklər hərəkətdə təhlükəsizliyin təşkili, həm də insanların bununla əlaqədar qarşılaşdığı digər problemlərin həllini təmin edəcək. Belə ki, qanunda moped nəqliyyat vasitəsinin istismarına dair tənzimləmələrin təkmilləşdirilməsi aydın şəkildə qeyd olunur.

İndiyədək motosikletlərdən həm qabaritlərinə görə, həm digər xüsusiyyətlərinə görə çox da fərqlənməyən mopedləri dövlət qeydiyyat nişanı olmadan idarə edirdilər. Eyni zamanda, bunun üçün sürücülük vəsiqəsi tələb olunmurdu. Bu da öz növbəsində müxtəlif problemlərə yol açır. Dövlət qeydiyyat nişanı olmadan idarə edildiyi üçün mopedlərin sürücüləri bir çox hallarda elementar tələblərə belə əməl etmir, digər hərəkət iştirakçılarına ciddi təhlükələr yaradırlar. Dövlət qeydiyyat nişanı olduqda isə bu nəqliyyat vasitəsini idarə edənlər qanunun tələblərini pozduqda inzibati tənbehdən yayına bilməzlər. Bu da yollarda təhlükəsizliyin təmin edilməsinə ciddi töhfə verəcək.

Mopedlərin dövlət qeydiyyat nişanı ilə təmin edilməsi yalnız yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların sayını azaltmaq, qarşısını almaq, başqa formada desək, qayda pozan sürücüləri aşkar edərək məsuliyyətə cəlb etmək baxımından vacib deyil, bu, həm də bir sıra digər qanun pozuntularının qarşısını almaq üçün vacibdir. Tutaq ki, oğurluq, xırda xuliqanlıq və sair. digər cinayət əməlləri törədən şəxs bu nəqliyyat vasitəsindən istifadə edir. Bu halda dövlət qeydiyyat nişanının olması cinayəti törədən şəxsi müəyyənləşdirərək məsuliyyətə cəlb etmək daha tez mümkün olacaq. Bu dəyişiklik asayişin keşiyində olan polisin işinə dəstək vermiş olacaq. Qısa olaraq

mopedlərin də digər nəqliyyat vasitələrinə bərabər tutulması təqdirəlayiqdir.

Qanunda 20-dən çox dəyişiklik təklif olunur ki, bunlar vacib məqamlardır. Misal üçün, məcburi hərəkət nişanları, səs siqnalları və xarici işıq siqnallarından istifadə edilməsi, nasaz nəqliyyat vasitələri, həmin nəqliyyat vasitələrinin yedəyə alınması, adamların daşınması, yüklərin daşınması, motodəbilqədən istifadə kimi məsələlər konkret olaraq mopedlərə də aid edilir.

**Vasif Qafarov.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Misir Ərəb Respublikasına səfəri və Yaxın Şərq Sülh Sammitində iştirakı ölkəmizin beynəlxalq siyasətdə artan rolunu, nüfuzunu və etibarlılığını bir daha nümayiş etdirdi. Bu səfər Azərbaycanın artıq regionla məhdudlaşmayan, qlobal miqyasda səsi eşidilən, sülh və əməkdaşlıq ideyalarının daşıyıcısı olan bir dövlətə çevrildiyini açıq şəkildə göstərir.

Cənab Prezidentin ABŞ Prezidenti Donald Trampın və Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etməsi Azərbaycanın beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi qəbul olunduğunun bariz göstəricisidir. Yaxın Şərq kimi mürəkkəb və gərgin bir regionda sülh prosesində Azərbaycanın dialoqa açıq, balanslı və etimad doğuran dövlət kimi çıxış etməsi, ölkəmizin beynəlxalq nüfuzunu daha da gücləndirir.

Azərbaycan bu gün həm Qərb, həm də İslam dünyası ilə əməkdaşlıq edən, körpü rolunu oynayan, qarşıdurmanı deyil, sülhü və əməkdaşlığı təşviq edən bir ölkədir. Bu, Prezident İlham Əliyevin praqmatik, realist və milli maraqlara əsaslanan uğurlu xarici siyasətinin nəticəsidir. Biz artıq təkcə regional sülh və sabitliyin deyil, beynəl-

xalq sülhün qorunmasına da töhfə verən bir ölkəyik.

Sülh Sammitində iştirak həm də Azərbaycanın praktiki sülh təcrübəsinin dünya miqyasında tanındığını göstərir. 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyev regionda sülh və əməkdaşlıq gündəliyini irəli sürərək, beynəlxalq hüququn aliliyinə əsaslanan ədalətli həllin mümkünlüyünü sübut etdi. Bu gün dünya Azərbaycanı ədalətli sülh quruculuğunun nümunəsi kimi tanıyır.

Prezident İlham Əliyevin Misir səfəri Azərbaycanın çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasətinin parlaq təzahürüdür. Bu səfər Azərbaycanın beynəlxalq arenada etibarlı, məsuliyyətli və sülhsevər tərəfdaş kimi mövqeyini möhkəmləndirir.

Bu gün Azərbaycan sülhün, sabitliyin və əməkdaşlığın carçısı olan bir dövlətdir. Cənab Prezidentin Yaxın Şərq Sülh Sammitində iştirakı isə həmin strateji mövqeyin daha da güclənməsinə xidmət edən tarixi hadisə kimi yadda qalacaq.

# MÜNDƏRİCAT

17 oktyabr 2025-ci il........................................................... 3
Edilməmiş çıxışların mətnləri............................................. 56

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Beşinci sessiya
Payız

44-cü cild

17 oktyabr 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  4,5. Sifariş 40. Tiraj 150.